17 iyul 2019 №51 (1636)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Rasim Əliyev Prezidentin fəxri diplomu ilə təltif edilib

Prezident İlham Əliyevin iyulun 15-də imzaladığı sərəncama əsasən, Rasim Həsən oğlu Əliyev Azərbaycanda memarlıq sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

## Azərbaycan Xalça Muzeyinə "Milli" statusu verilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli qərarı ilə Azərbaycan Xalça Muzeyinə "Milli" statusu verilib.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə Maliyyə Nazirliyi ilə birlikdə bu qərardan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Pakistan ölkəmizlə əlaqələri daha da inkişaf etdirmək istəyir

İyulun 15-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Pakistan İslam Respublikasının Gilgit-Baltistan əyalətinin Baş naziri Hafiz ur Rəhmanı qəbul edib.

Görüşdə maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Mədəniyyət kollektivlərinin qarşılıqlı səfərlərinin təşkilinin, birgə mədəni tədbirlərin keçirilməsinin vacibliyi vurğulanıb.

səh. 3

## "Dövlət sərhədinin delimitasiyası üçün qeyri-hüquqi faktlar əsas təşkil edə bilməz"

Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov Gürcüstan-Azərbaycan sərhədində bir qrup şəxs tərəfindən sərhədçilərimizə qarşı törədilmiş insidentlə bağlı müsahibə verib.

Xələf Xələfov bildirib ki, dövlət sərhədinin delimitasiyası üçün hər hansı dini-mədəni və sair qeyri-hüquqi faktlar əsas təşkil edə bilməz. Keşikçidağ mağaralar kompleksini əhatə edən sahə bütün mövcud hüquqi sənədlər, faktiki istifadə vəziyyətinə görə hər zaman Azərbaycan ərazilərinə aid olub.

səh. 2

# Keçmişdən gələcəyə sənət körpüsü

## Görkəmli memar Rasim Əliyevin 85 illik yubileyi qeyd olundu



İyulun 16-da Beynəlxalq Muğam Mərkəzində Əməkdar memar, Dövlət mükafatı laureatı, akademik Rasim Əliyevin 85 illiyinə həsr olunmuş tədbir keçirildi.

Əvvəlcə görkəmli memarın "Keçmişdən gələcəyə" adlı kitabının təqdimatı oldu.

Dövlət və hökumət rəsmilərinin, elm, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi tədbirdə Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə Rasim Əliyevin memarlıq sənətinin inkişafında xidmətlərindən danışdı. Bildirdi ki, sənətkar onlarla gözəl memarlıq əsərinin, bu gün abidə statusuna layiq olan binaların müəllifidir. Uzun illər Bakının baş memarı olmuş Rasim Əliyevin şəhərimizin gözəlləşməsində xidmətləri böyükdür: "Rasim müəllimin əsərlərində ölkəyə olan məhəbbətinin təzahürləri hiss olunur. O həm də gözəl rəssamdır. Çəkdiyi portretlərdə insan xarakteri, onun gözəlliyi ön plandadır. Rasim Əliyevin rəng seçimi, rəssamlıq texnikası, tablolarında əks etdirilən lirika, əslində, öz xarakterindən irəli gəlir. Görkəmli sənətkarın böyük tələbə ordusu var. O, Azərbaycanla yanaşı, xarici ölkələrdə də yaxşı tanınır".

Mədəniyyət naziri Əbülfəs Qarayev görkəmli memarın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında dövlət başçısı İlham Əliyevin sərəncamını oxudu və fəxri diplomu yubilyara təqdim etdi.

Nazir Rasim Əliyevin gördüyü işlərin həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini vurğulayaraq bildirdi ki, o, Azərbaycan memarlıq sənətinin ən görkəmli nümayəndələrindən biridir: "Rasim müəllimin yaratdığı sənət inciləri daim yaşayacaq, mədəniyyətimizin inkişafına müsbət təsirini göstərəcək. Onun yaradıcılığı keçmişdən gələcəyə bir körpüdür".

davamı səh. 2-də

# "Nəsimi ili": klassik ədəbi irsə müasir baxış

İyulun 12-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında "Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirildi.

Müsabiqə Mədəniyyət Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə gerçəkləşib.



Mərasimdə mədəniyyət naziri Əbülfəs Qarayev, nazir müavini Rafiq Bayramov, KİVDF-nin icraçı direktoru Vüqar Səfərli, millət vəkili, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, ölkənin aparıcı mətbuat orqanlarının rəhbərləri iştirak edirdilər.

Tədbirin əvvəlində bədii hissə təqdim edildi. İmadəddin Nəsiminin qəzəlləri səsləndirildi, muğam ifaçılarının dahi şairin qəzəlləri üstündə təqdim etdikləri musiqi nömrələri alqışlarla qarşılandı.

davamı səh. 4-də



## Kann Azərbaycan xalçalarını yenidən kəşf edir

Azərbaycan mədəniyyətinin Kannda yenidən təşviq edilməsindən çox şadıq. Xalça sərgisi bizdə çox böyük maraq doğurdu. Bu fikirləri Heydər Əliyev Fondu tərəfindən Fransanın Kann şəhərində təşkil edilmiş "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərginin açılışında iştirak edən Kann merinin müavini Frank Şıkli bildirib.

Frank Şıkli qeyd edib ki, bu sərgini dünya sərgisi də adlandırmaq olar, çünki Kann dünya şəhəri kimi tanınır. Bu sərgi Azərbaycan mədəniyyətinin təbliği baxımından çox əhəmiyyətlidir.

"Azərbaycan haqqında çox oxumuşam, ancaq ölkənizə getmək istəyirəm. Əminəm ki, biz gələcəkdə mədəniyyət və təhsil sahələrində yeni layihələr həyata keçirəcək və bir-birimizi qarşılıqlı olaraq daha yaxından tanıyacağıq", - bu sözləri isə şəhər meriyasının Beynəlxalq əlaqələr departamentinin rəhbəri Maqali Tabui deyib.

Maqali Tabui bildirib ki, bu il təşkil olunan sərgi Azərbaycan xalçaçılığı ilə daha ətraflı tanışlığa imkan yaradır. Ümumiyyətlə, belə tədbirlər tərəfdaşlığımıza, Azərbaycan mədəniyyətinin təbliğinə yeni təkan verir.

mövzunun davamı səhifə 8-də

## Bitən mövsümdən akkordlar

Azərbaycan teatrları daha bir mövsümü başa vurdular. Bu mövsüm də teatr sahəsində yeniliklər, yaddaqalan premyeralar, beynəlxalq festivallarla tarixə çevrildi. Yaradıcı kollektivlər üçün yay istirahəti həm də qarşıdakı mövsümə hazırlıq, yeni layihələr, qastrollar və s. barədə düşünmək üçün bir imkandır...

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı öz ənənəsinə sadiq qalaraq mövsümə iyulun 14-də "Qarabağnamə" tamaşası ilə yekun vurdu. Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında hazırlanan tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur.

Müxtəlif beynəlxalq festivallarda iştirak, yeni tamaşalarla dolğun bir mövsümü başa vuran kollektiv ümumilikdə 8 tamaşa hazırlayaraq teatrsevərlərin ixtiyarına verib.

davamı səh. 5-də



## "Cinema Radio" layihəsinə start verilir

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Avto FM radiosunun dəstəyi ilə "AzerNyuMedia" şirkəti "Cinema Radio" layihəsinin yayımına başlayır.




Hər həftənin şənbə günü saat 15.00-dan 16.00-dək yayımlanacaq verilişdə dünyada və yerli kino bazarında baş verən ən son yeniliklər təqdim ediləcək, həftənin kino hadisəsi qonaqlarla müzakirə olunacaq.

Məlumat üçün bildirək ki, veriliş bir neçə rubrikadan ibarət olacaq. Dinləyicilər kinoviktorinanın suallarını cavablandırmaqla hədiyyələrə sahib olacaqlar. Verilişin aparıcısı Yaqut Gözəlovadır. Radio layihənin tərəfdaşı "CinemaPlus" kinoteatrlar şəbəkəsidir.

## Şeir, incəsənət və mənəviyyat dünyası

Sentyabrın 28-dən oktyabrın 1-dək Azərbaycanda Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalı keçiriləcək.

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşacaq festival dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədi daşıyır. Silsilə tədbirlərdə Nəsimi poeziyası, böyük mütəfəkkirin fəlsəfi ideyaları müxtəlif incəsənət növləri və onların ahəngi vasitəsilə tərənnüm ediləcək.

Xatırladaq ki, ölkəmizdə Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalı ilk dəfə 2018-ci il sentyabrın 27-dən 30-dək keçirilib.

davamı səh. 5-də

Lənkəran teatrı İrandan diplomla qayıdıb



səh. 5

"Bakı Mədəniyyətlərarası Gənclər Forumu: dinlərarası dialoqdan fəaliyyətə doğru" mövzusunda forum keçirilib

səh. 3



Dirijor Əyyub Quliyev Budapeştdə festivalda iştirak edib

səh. 8

№51 (1636)
17 iyul 2019
www.medeniyyet.az

# Keçmişdən gələcəyə sənət körpüsü

## Görkəmli memar Rasim Əliyevin 85 illik yubileyi qeyd olundu

*əvvəli səh. 1-də*

Nazir Əbülfəs Qarayev qeyd etdi ki, Bakıda, eləcə də bölgələrimizdə bir sıra tarixi abidələrin bugünkü görkəmində Rasim Əliyevin dəst-xətti görünür. Nazir sənətkarı yubileyi münasibətilə təbrik etdi, ona cansağlığı və yeni yaradıcılıq uğurları arzuladı.

Daha sonra çıxış edən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev Rasim Əliyevin Azərbaycan memarlıq sənətinə verdiyi töhfələri yüksək qiymətləndirdi. Qeyd etdi ki, sənətkar Naxçıvan şəhərində Hüseyn Cavid məqbərəsinin layihəsinin, Heydər Əliyev Beynəlxalq Aeroportu və Naxçıvan Hava Limanının, Bakının bir neçə metro stansiyasının, şəhərin əsas parklarının, Azərbaycanın Türkiyədəki səfirliyinin binasının və digər memarlıq sahəsində özünəməxsusluğu ilə seçilən layihələrin müəllifi və həmmüəllifidir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Ömər Eldarov, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli və başqaları çıxış edərək Rasim Əliyevin memarlığa, rəssamlığa olan məhəbbətindən danışdılar. Rasim Əliyevin istedadlı memar, fırça ustası olduğunu qeyd edən natiqlər onun şəhərsalma prosesinin təşkilatçısı kimi fəaliyyətini vurğuladılar.









Daha sonra Lider TV-nin "Xəzərin sahilində" verilişinin Rasim Əliyevə həsr olunmuş xüsusi buraxılışının təqdimatı oldu.

Yubiley gecəsi konsert proqramı ilə davam etdi.

Sonda çıxış edən Rasim Əliyev tədbirin təşkilində əməyi olan hər kəsə dərin təşəkkürünü bildirdi.

Qeyd edək ki, Rasim Həsən oğlu Əliyev 16 iyul 1934-cü ildə görkəmli alim, akademik, ictimai xadim Həsən Əliyevin ailəsində anadan olub. 1952-1958-ci illərdə Azərbaycan Politexnik İnstitutunun Memarlıq fakültəsində təhsil alıb. Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun aspirantı olub. Azərbaycan Dövlət Layihə İnstitutunda əmək fəaliyyətinə başlayan memar respublikada şəhərsalma və memarlıq sahəsində müxtəlif vəzifələrdə çalışıb. 1974-1988-ci illərdə Bakı şəhərinin baş memarı olub. Onun rəhbərliyi və müəllifliyi ilə Bakı şəhərinin ötən əsrdəki sonuncu baş planı, "İçərişəhərin regenerasiya planı" hazırlanıb, Bakıda 8-ci və 9-cu mikrorayonlar, Əhmədli qəsəbəsi, Yeni Günəşli yaşayış massivlərinin, Rixard Zorge və Koroğlu parklarının layihələri hazırlanıb, paytaxtda, həmçinin respublikanın bir sıra şəhər və rayonlarında memarlıq-tikinti layihələri həyata keçirilib.

Bu sahədə göstərdiyi xidmətlərə görə Rasim Əliyev Əməkdar memar fəxri adına (1979), respublika Dövlət mükafatına (1982) layiq görülüb, "Qırmızı Əmək Bayrağı" (1980), "Şöhrət" (2000), "Şərəf" (2009), "İstiqlal" (2014) ordenləri ilə təltif olunub.

Rasim Əliyev Beynəlxalq Memarlıq Akademiyasının, Rusiya Memarlıq və İnşaat Akademiyasının, Şərq Ölkələri Memarlıq Akademiyasının həqiqi üzvüdür.

**F.HÜSEYNOV**

# "Dövlət sərhədinin delimitasiyası üçün qeyri-hüquqi faktlar əsas təşkil edə bilməz"

Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov Gürcüstan-Azərbaycan sərhədində bir qrup şəxs tərəfindən sərhədçilərimizə qarşı törədilmiş insidentlə bağlı AZƏRTAC-a müsahibə verib.

***- Məlum olduğu kimi, iki gün əvvəl bir qrup şəxs Keşikçidağ mağaralar kompleksi ərazisində Gürcüstandan Azərbaycan istiqamətində sərhədi pozaraq Azərbaycan sərhədçilərinə hücum edib, onları nalayiq ifadələrlə təhqir edib və güc tətbiq edərək silah-sursatlarını əllərindən alıblar. Bununla bağlı nə söyləyə bilərsiniz?***

- Bəli, təəssüflər olsun ki, iyulun 14-də bir qrup şəxs tərəfindən birbaşa Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə yönəlmiş təxribat xarakterli, dövlət sərhədinin keşiyində duran sərhəd naryadına qarşı törədilən cinayət əməli baş verib. Güman edirəm ki, bu insidentin Gürcüstan Hökuməti ilə əlaqəsi yoxdur, lakin Gürcüstan sərhədçiləri öz hərəkətsizliyi ilə bu təxribatçıların və cinayət ünsürlərinin Azərbaycan Respublikası ərazisinə buraxılmasına görə məsuliyyət daşıyırlar. Sözsüz ki, bu kimi təxribatlar və insidentlər iki ölkə arasında təşəkkül tapmış dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinə zərbə vurur. Bu cinayəti törədən şəxslər məsuliyyətə cəlb edilməli və qanunların tələbinə uyğun cəzalanmalıdırlar.

***- Bu günə qədər Keşikçidağ mağaralar kompleksi ilə bağlı mediada müxtəlif fikirlər səsləndirilir. Bu barədə danışmağınızı xahiş edirik.***

- Dövlət sərhədinin delimitasiyası üçün hər hansı dini-mədəni və sair qeyri-hüquqi faktlar əsas təşkil edə bilməz. Keşikçidağ mağaralar kompleksini əhatə edən sahə bütün mövcud hüquqi sənədlər, faktiki istifadə vəziyyətinə görə hər zaman Azərbaycan ərazilərinə aid olub. Bu, eyni zamanda, hələ 1963-cü ildə Gürcüstan SSR Ali Soveti tərəfindən təsdiq edilmiş topoqrafik növbətçi xəritələrdə öz əksini tapıb və SSRİ-nin süqutuna qədər tərəflər arasında inzibati sərhəd kimi qəbul edilib. Buna görə də hüquqi baxımdan qeyd edilən sahə ilə bağlı hər hansı mübahisədən və ya iddiadan söhbət gedə bilməz. Eyni zamanda, bu sahə də razılaşdırılmayan digər sahələr kimi delimitasiya çərçivəsində razılaşdırılmalı, iki dövlət arasında imzalanacaq dövlət sərhədinə dair müqavilədə təsbit olunmalıdır.

***- Növbəti mərhələdə komissiyalar çərçivəsində hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?***

- Təəssüf hissi ilə qeyd etməliyəm ki, Gürcüstan və Azərbaycan komissiyalarının işində uzun fasilələr olub. Bu fasilələrə səbəb partnyorların tez-tez dəyişməsidir. Azərbaycan tərəfi komissiyaların iclaslarının davamlı və ardıcıl olması üçün səylər göstərib. Bu il mayın 23-24-də Bakı şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə növbəti 12-ci iclasda komissiyaların işçi qrupları səviyyəsində dövlət sərhəd xəttinin razılaşdırılmamış sahələrinə yerində baxış və müvafiq ölçmə işlərinin aparılması barədə razılıq əldə olunub və tərəfimizdən bu işlərin cari ilin avqust ayının ikinci yarısında həyata keçirilməsi təklif edilib. Həmin görüşün nəticələrinə görə, komissiyaların növbəti iclasının Gürcüstanda keçirilməsi nəzərdə tutulur.

# "Muzey əşyalarının daimi mühafizə portalı" üzrə növbəti treninq keçirilib

İyulun 15-də Şəmkir şəhərində "Muzey əşyalarının daimi mühafizə portalı"nın yenidən işlənilmiş proqram təminatının istifadə qaydalarına dair təqdimat – treninqin ikinci mərhələsi keçirilib.

"Muzey əşyalarının daimi mühafizə portalı"nın yenilənmiş proqram təminatı "AdZone" şirkəti tərəfindən hazırlanıb. Bununla əlaqədar, şəhər və rayonlarda fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri və muzeylərin əməkdaşları üçün yeni proqram təminatının izah edilməsi məqsədilə regional təqdimat-treninqlər keçirilir.

20-21 iyun tarixində Qəbələ şəhərində təşkil olunan ilk treninqdə İsmayıllı, Şəki, Kürdəmir, Sumqayıt və Xaçmaz regional mədəniyyət idarələrinin tabeliyində olan Heydər Əliyev mərkəzlərinin və muzeylərin direktor, baş mühafiz və portalla işləyən operatorları iştirak etmişdi.

Növbəti treninq 15-16 iyul tarixində Şəmkir şəhərində təşkil edilib. Tədbirdə Mədəniyyət Nazirliyinin Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin müdiri Azadə Hüseynova, şöbənin Mədəniyyət sərvətlərinə nəzarət və reyestrlər sektorunun müdiri Yaşar Hüseynli, İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Qabil Abbasov, Azərbaycan İstiqlal Muzeyinin direktor müavini Sədi Mirseyibli, "AdZone" şirkətinin əməkdaşları iştirak ediblər. Treninqə Ağstafa, Şəmkir, Gəncə, Bərdə, Ağcabədi regional mədəniyyət idarələrinin tabeliyində olan Heydər Əliyev mərkəzlərinin və muzeylərin direktor, baş mühafiz və portalla işləyən operatorları qatılıb.





Treninq zamanı portalın proqram təminatının istifadə qaydalarına dair təqdimat nümayiş olunub, o cümlədən portalla bilavasitə məşğul olan operatorlara muzey fondlarında qorunub saxlanılan eksponatların portala daxil edilməsi qaydası göstərilib.

Mədəniyyət Nazirliyinin "Muzey sərvətlərinin daimi mühafizə portalı" üçün vahid idarəetmə sisteminin yaradılması məqsədilə muzeylər tərəfindən toplanılmış və sistemləşdirilmiş məlumat bazasının idarə olunması, yenilənməsi və internet məkanında təmsil olunması üçün proqram təminatı ən müasir, beynəlxalq və milli texniki parametrlərə və təhlükəsizlik standartlarına cavab verir və gələcəkdə onun digər məlumat bazaları və portallarla inteqrasiya olunması nəzərdə tutulur.

# İstanbulda tamaşaya qoyulan "İblis" mükafata layiq görülüb

Görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin "İblis" əsərinin İstanbulun Harbiyə-Muhsin Ərtuğrul səhnəsində nümayiş olunan tamaşasının müəllifi – dramaturq, teatrşünas Hilmi Zafer Şahin "İlin ən yaxşı dramaturqu" nominasiyası üzrə mükafata layiq görülüb.



Türkiyədə ilk dəfə səhnələşdirilən "İblis" əsərinə tanınmış aktrisa, Azərbaycanın Əməkdar incəsənət xadimi, İstanbul Şəhər Teatrlarının direktor müavini Məlahət Abbasova quruluş verib.

Qeyd edək ki, premyerası 2019-cu il aprelin 17-də keçirilən tamaşanın baş məsləhətçisi filologiya üzrə fəlsəfə doktoru, yazıçı-publisist Sona Vəliyeva, bəstəkarı Xalq artisti Aygün Səmədzadədir.

# Gənc rejissorun filmi beynəlxalq festivalda uğur qazanıb

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərən Gənc Sinemaçılar Klubunun üzvü Ruslan Ağazadənin "İnsan" filmi Xorvatiyada keçirilən "Croatian One-Minute" festivalında ikinci yerə layiq görülüb.

Kinostudiyadan bildirilib ki, ekran əsərinin rejissoru və operatoru Ruslan Ağazadə, prodüseri Çingiz Qulaməliyevdir.

# "Qızıl əllər, şən ürəklər"

Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Xızı rayonunda Cəfər Cabbarlı adına Mədəniyyət Mərkəzi və rayon MKS-nin birgə təşkilatçılığı ilə "Qızıl əllər, şən ürəklər" adlı tədbir keçirilib.

Heydər Əliyev parkında təşkil edilən tədbirdə Mədəniyyət mərkəzinin özfəaliyyət kollektivinin ifasında şən mahnılar səslənib, dərnək üzvlərinin əl işlərindən ibarət sərgi təqdim olunub. MKS-nin təqdim etdiyi kitab sərgiləri də maraqla qarşılanıb. Uşaqlar şeirlər söyləyib, musiqi sədaları altında rəqs ediblər.

# İslam ölkələrinin kulinarları Bakıda bir araya gəlib

Bakıda Milli Kulinariya Mərkəzi və Azərbaycan Milli Kulinariya Assosiasiyasının (AMKA) təşkilatçılığı ilə Dünya İslam Kulinariya Konqresi keçirilir.



İyulun 16-da konqresin açılış mərasimində çıxış edən Dünya İslam Kulinariya Birliyinin (WICS) prezidenti Gökhan Tufan tədbirin Azərbaycanda keçirilməsindən məmnunluğunu ifadə edib. Vurğulanıb ki, konqresin keçirilməsində məqsəd İslam ölkələrinin kulinariyasını bir araya gətirmək və təbliğ etməkdir.

AMKA-nın prezidenti Tahir Əmiraslanov məlumat verib ki, üç gün davam edəcək konqresdə 24 ölkə iştirak edir. Tədbir çərçivəsində halal qida sərgisi, aşpaz və qənnadıçıların İslam mətbəxi yarışları, WICS kateqoriyalı münsif kursları, Dünya İslam Kulinariya Birliyinin II konfransı da keçiriləcək. Həmçinin "Azərbaycanın Tovuz bölgəsinin mətbəxi" axşamı keçiriləcək.

T.Əmiraslanov ötən il nəşr olunan "Azərbaycan mətbəxində dolmalar" adlı kitab barədə də məlumat verib. Vurğulayıb ki, kitab Azərbaycan mətbəx mədəniyyətini daim diqqətdə saxladığına, UNESCO-nun siyahısında dolmanın Azərbaycanın qeyri-maddi mədəni irs nümunəsi kimi yerini tutmasında böyük zəhmətinə görə Birinci vitse-prezident Mehriban Əliyevaya ithaf edilib. Kitabda 2016-cı ildə Abşeronda, 2017-ci ildə Xaçmazda keçirilən dolma festivallarında təqdim olunan 300-dən çox dolma növü öz əksini tapıb.

Tədbirdə WICS-nin baş katibi Əli Nouman, Milli Məclisin deputatı Qənirə Paşayeva və başqaları çıxış edərək konqres barədə öz fikirlərini bölüşüblər.

# Pakistan Azərbaycanla əlaqələri daha da inkişaf etdirmək istəyir

## Mədəniyyət kollektivlərinin qarşılıqlı səfərlərinin, birgə tədbirlərin keçirilməsinin vacibliyi vurğulanıb

İyulun 15-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Pakistan İslam Respublikasının Gilgit-Baltistan əyalətinin Baş naziri Hafiz ur Rəhmanı qəbul edib.



Əbülfəs Qarayev qonağı səmimiyyətlə salamlayaraq ölkəmizin zəngin mədəniyyəti haqqında söz açıb. Bildirib ki, son illər ölkəmizdə mədəniyyət sahəsinin inkişafı, mədəni irsin qorunması və bu istiqamətdə beynəlxalq əlaqələrin inkişafına xüsusi önəm verilir.

Nazir bu günlərdə UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasının ölkəmizdə uğurla keçirildiyini və Pakistan nümayəndə heyətinin də sessiyada fəal iştirak etdiyini diqqətə çatdırıb. Əbülfəs Qarayev sessiyada həmçinin Pakistanın Lahor şəhərindəki tarixi abidələrin qorunması üçün mühüm qərarın qəbul edildiyini deyib.

İki ölkə arasındakı münasibətlərə toxunan nazir Azərbaycan və Pakistan xalqları arasındakı mövcud olan dostluq, qardaşlıq əlaqələrindən danışıb. Ölkələrimizin bir-birini bütün beynəlxalq təşkilatlarda daim dəstəklədikləri vurğulanıb.

Qonaq Pakistanın Gilgit-Baltistan əyalətinin tarixi, mədəni həyatı və turizm potensialı haqqında geniş məlumat verib. Hafiz ur Rəhman Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da inkişafında maraqlı olduqlarını diqqətə çatdırıb. O, Pakistan ilə Azərbaycan arasında səmimi dostluq və qardaşlıq əlaqələrinin olduğunu vurğulayaraq qarşılıqlı səfərlərin, görüşlərin bu münasibətlərin daha da inkişafına təkan verdiyini deyib.

Görüşdə ümumi maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Mədəniyyət kollektivlərinin qarşılıqlı səfərlərinin təşkilinin, birgə mədəni tədbirlərin keçirilməsinin vacibliyi vurğulanıb.

# Mədəniyyətlərarası gənclər forumu: dialoqdan fəaliyyətə

## Multikulturalizm yay məktəbinin növbəti layihəsi başlayıb

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsinə başlayıb. İyulun 15-də layihə çərçivəsində "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: dinlərarası dialoqdan fəaliyyətə doğru" mövzusunda forum keçirilib.



Forumda çıxış edən Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Azərbaycanda multikulturalizm ənənələrindən bəhs edib. Qeyd edib ki, Azərbaycanda müxtəlif dinlərə və millətlərə mənsub insanlar əsrlərdir birgə yaşayırlar, bu gün multikulturalizm dövlət siyasətinin tərkib hissəsidir.

Şöbə müdiri Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi"nin əhəmiyyətindən danışıb. Vurğulayıb ki, bu platforma mədəniyyətlərarası dialoqun inkişafı baxımından böyük önəm kəsb edir. O, beynəlxalq multikulturalizm məktəblərinin önəmindən danışaraq bildirib ki, bu, gənclər arasında dialoqun, dostluğun yaranmasına xidmət edir.

BBMM-in icraçı direktoru Rəvan Həsənov qeyd edib ki, mərkəzin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən qış və yay məktəbləridir. IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi iyulun 15-dən 21-dək Bakı şəhəri ilə yanaşı, Oğuz, Şəki və Qəbələ rayonlarında fəaliyyət göstərəcək.

Layihənin təşkilatçılarından olan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov qeyd edib ki, tolerantlıq ruhunda böyüyən Azərbaycan gəncləri təkcə ölkəmizdə deyil, həmçinin beynəlxalq tədbirlərdə də multikultural dəyərlərin təbliğ edilməsində aktiv rol oynayırlar.

Layihəyə dəstək verən Böyük Britaniyanın Gənclər Arasında Ümumi Söz (ACWAY) beynəlxalq təşkilatının direktoru Ravaad Mahyub deyib ki, müxtəlif dinlərə və millətlərə mənsub insanların bir-birilərinə münasibətdə qarşılıqlı hörmət və anlayış göstərmələri tolerantlıq üçün əsas şərtdir. O, 2016-cı ildən ACWAY-ın yüzdən çox tədbir keçirdiyini, BMT və digər beynəlxalq təşkilatlar, həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə əməkdaşlıq şəraitində çalışdığını bildirib.

Çıxışlardan sonra Azərbaycanla bağlı "Tolerantlıq diyarı" adlı videoçarx nümayiş olunub. Forum işini bölmə iclasları ilə davam etdirib.

# "Muğam dünyasına səyahət"

Fəaliyyətinin 10 ilini tamamlayan Beynəlxalq Muğam Mərkəzi (BMM) sənətsevərlərə yay hədiyyəsi hazırlayıb. Bir çox teatr-konsert müəssisələri sənət mövsümünü başa vursa da, BMM yay boyu Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə "Muğam dünyasına səyahət" layihəsini həyata keçirəcək.

Konsertlər Beynəlxalq Muğam Mərkəzinin solistləri, muğam müsabiqələrinin laureatlarının iştirakı ilə idarənin tabeliyində olan mədəniyyət mərkəzlərində reallaşacaq.

"Muğam dünyasına səyahət" silsiləsindən ilk tədbir paytaxtın Sabunçu rayonunun Maştağa qəsəbəsində yeni təmir olunan Hacıağa Abbasov adına Mədəniyyət Mərkəzində reallaşıb. Konsertdə xanəndələr Hüseyn Məlikov, Gülzar Fərəcova, Sədəf Budaqovanın çıxışları gur alqışlarla müşayiət olunub. Xanəndələri tarda Saleh Salahov, kamançada Fərrux Haşımlının rəhbərliyi ilə ansambl müşayiət edib. Proqram qəsəbə sakinlərinə xoş əhvallı yay istirahəti bəxş edib.

Növbəti konsertlər 19 iyulda Qaradağ rayonunun Qobustan qəsəbəsində Aşıq Rza Qobustanlı adına Mədəniyyət evində, 9 avqustda Binəqədi Mərkəzi Mədəniyyət evində, avqustun 27-də Mərdəkan Mədəniyyət sarayında keçiriləcək.

**LALƏ**

# Muzey Mərkəzindəki sərgi davam edir

Tanınmış rəssam Mahmud Rüstəmovun Muzey Mərkəzində açılan "Un/Published" adlı fərdi sərgisinin vaxtı iyulun 20-dək uzadılıb.



Azərbaycan Dövlət Rəsm Qalereyasından bildirilib ki, ziyarətçilər qeyd edilən tarixədək sərgi ilə tanış ola biləcəklər. Muzey Mərkəzi, Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə reallaşan sərgi iyunun 21-də açılıb.

Sərgidə rəssamın rəngkarlıq, qrafika, heykəltəraşlıq və müasir incəsənət əsərləri nümayiş olunur.

# Rəqs kollektivimiz Qazaxıstanda qalib olub




Qazaxıstanın Nur-Sultan şəhərində "Şattık" gənc istedadların XI Beynəlxalq festivalı keçirilib.

Festivalda Qazaxıstanın şəhər və bölgələri, Azərbaycan, Rusiya Federasiyası, Ukrayna, Bolqarıstan, Belarus, Özbəkistan və digər ölkələrin kollektivləri xoreoqrafiya, vokal və instrumental musiqi nominasiyaları üzrə çıxış ediblər.

Beynəlxalq tədbirdə Təhsil Nazirliyinin 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi rəqs dərnəyinin üzvləri tərəfindən maraqlı konsert proqramı təqdim edilib.

Qala-konsertdə "Mənim Azərbaycanım" kompozisiyası ilə çıxış edən "Azəri inciləri" rəqs kollektivi 1-ci yerin qalibi olub. Kollektiv və dərnək rəhbəri Lalə Qəti diplomla təltif olunub.

# Şamaxıda "Kosmos yay festivalı"



Azərbaycan Milli Elmlər Akademiyasının N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında "Kosmos yay festivalı" keçirilib.

Rəsədxanadan bildiriblər ki, festivalda müxtəlif yaş qruplarından 120 nəfər iştirak edib.

Təşəbbüsün məqsədi "Bəşəriyyətin böyük sıçrayışı" sayılan Aya enmənin 50 illiyi münasibətilə ictimaiyyət arasında bu istiqamətdə maarifləndirmə işinin aparılmasıdır.

Rəsədxananın şöbə müdiri Ədalət Ətayi festival iştirakçılarını buradakı muzeylə tanış edib, eksponatlar haqqında ətraflı məlumat verib.

Sonra iştirakçılar müəyyən edilmiş kamp ərazisinə aparılıb. Burada dron uçuşları izlənilib, Bakı Mühəndislik Universiteti tələbələrinin hazırladığı təyyarə nümayiş etdirilib. Ədalət Ətayi astronomiya elmi haqqında məruzə ilə çıxış edib.

# Ümummilli liderin hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə tədbirlər keçirilib

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə şəhər və rayonlarda çeşidli mədəni-kütləvi tədbirlər keçirilib.

İyulun 14-də Bakıdakı Heydər Əliyev Mərkəzinin parkında konsert təşkil edilib. Konsert proqramında xalq artistləri Zülfiyyə Xanbabayeva, Samir Cəfərov, Mənsum İbrahimov, Ağadadaş Ağayev, Gülyaz və Gülyanaq Məmmədovalar, İlqar Muradov, Mələkxanım Əyyubova, əməkdar artistlər Fərqanə Qasımova, Aygün Bəylər, Sevda Ələkbərzadə, Ədalət Şükürov, tanınmış ifaçılar Samirə Allahverdiyeva, Sevda Yəhyayeva, Günay İbrahimli, Ərəstun Quliyev, həmçinin "Mirvari" rəqs ansamblı çıxış edib.



Sənətçilərin səsləndirdikləri mahnı və kompozisiyalar paytaxt sakinlərinin və şəhərin qonaqlarının alqışları ilə qarşılanıb.

***

İyulun 12-də Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında ümummilli liderin hakimiyyətə gəlişinin 50-ci ildönümünə həsr olunmuş dəyirmi masa təşkil edilib.

Tədbirdə kitabxananın direktoru Oruc Quliyev, elmi işlər üzrə direktor müavini Xalidə Musayeva çıxış edib. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Xəzər Zeynalovun "Heydər Əliyevin bədii obrazı təsviri sənətdə", kulturologiya üzrə fəlsəfə doktoru Namiq Abbasovun "Heydər Əliyev müasir Azərbaycanın mədəniyyət siyasətinin qurucusudur" mövzularında məruzələri dinlənilib.

***

Sumqayıtın baş meydanında ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinin 50-ci ildönümünə həsr olunmuş bayram konserti təşkil olunub.

Konsertin aparıcıları 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə bütün sahələrdə yeni dövrün başladığını, böyük intibahın təməlinin qoyulduğunu vurğulayıblar. Qeyd olunub ki, respublikaya rəhbərliyi müddətində 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılıb.

Konsertdə şəhərin bədii özfəaliyyət kollektivləri və solistlər maraqlı proqram təqdim ediblər.

***

İsmayıllıdakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzində rayon İcra Hakimiyyəti və İsmayıllı Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə ümummilli liderin hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə tədbir keçirilib.



Tədbirdə qeyd olunub ki, xalqımızın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyevin müstəsna yeri və rolu var. Çıxış edənlər ulu öndərin xalq və vətən qarşısında misilsiz xidmətlərindən, ölkəmizin dünya birliyində layiqli yer tutmasından danışıblar.

Rəsmi hissədən sonra tədbir Mədəniyyət mərkəzi tərəfindən hazırlanmış konsert proqramı ilə davam edib.

***



Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş "Xalqa bağışlanan ömür" mövzusunda tədbir keçirilib. Mərkəzin direktoru Reyhanə Sadıxova ulu öndərin dövlətçilik fəaliyyətindən söz açıb. Heydər Əliyevin həyat yolunu əks etdirən videoçarx nümayiş olunub.

***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə Ağstafa rayonunda da toplantı keçirilib. Ağstafa Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində gerçəkləşən tədbirdə idarənin rəisi Vüqar Qədirov, Qazax rayon Heydər Əliyev Mərkəzinin direktoru Ceyhunə Abdullayeva, Tovuz rayon Heydər Əliyev Mərkəzinin direktoru Humay Aslanova və başqaları çıxış ediblər. Ulu öndərin həyat və ictimai-siyasi fəaliyyətindən bəhs edən "Xalqa bağışlanan ömür" adlı film nümayiş olunub.

***

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə Bərdə Regional Mədəniyyət İdarəsinin tabeliyindəki mədəniyyət müəssisələrində - Bərdə rayon Heydər Əliyev adına park-bulvar istirahət kompleksində, Yevlax şəhər Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev parkında, Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində, Tərtər və Yevlax şəhər MKS-lərdə tədbirlər təşkil olunub.

# “Nəsimi ili”: klassik ədəbi irsə müasir baxış

## Fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri mükafatlandırıldı

*əvvəli səh. 1-də*

Tədbir çərçivəsində Mədəniyyət Nazirliyinin mətbu orqanı olan “Mədəniyyət” qəzetinin yeni çapdan çıxan “İmadəddin Nəsimi 650” adlı xüsusi buraxılışı da təqdim edildi.

Məlumat verildi ki, böyük şairin 650 illiyi və 2019-cu ilin “Nəsimi ili” elan edilməsi haqqında Prezident İlham Əliyevin müvafiq sərəncamlarının icrası ilə bağlı Mədəniyyət Nazirliyi tərəfindən Tədbirlər Planı hazırlanaraq icra olunmaqdadır. Şəhər (rayon) mədəniyyət müəssisələrində yubileyə həsr olunmuş ədəbi-bədii gecə, konfrans, dəyirmi masa, kitab sərgisi, bədii qiraət, rəsm müsabiqələri keçirilir. Bu tədbirlər nazirliyin mətbu orqanı olan “Mədəniyyət” qəzetində davamlı şəkildə işıqlandırılır. Nəfis tərtibatlı, 48 səhifədən ibarət xüsusi buraxılış dahi şairin yubileyinə, “Nəsimi ili”nə töhfə olmaqla bərabər, respublikamızda, eləcə də xarici ölkələrdə bu mövzuda keçirilən tədbirləri, mədəniyyət layihələrini məcmu halda oxuculara təqdim edir.

Jurnalist yazıları müsabiqəsi haqqında verilən məlumatda qeyd olundu ki, müsabiqə Prezident İlham Əliyevin “Nəsimi ili” ilə bağlı 11 yanvar 2019-cu il tarixli sərəncamından irəli gələrək Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığı, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyəti nəzərə alınaraq bu mövzuda jurnalist araşdırmalarını və yazılarını stimullaşdırmaq məqsədilə keçirilib.

Daha sonra Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev səhnəyə dəvət olundu. Nazir çıxışında bildirdi ki, Mədəniyyət Nazirliyinin hər il Milli Mətbuat Günü ərəfəsində jurnalist yazıları müsabiqəsi keçirməsi ənənəvi hal alıb: “Lakin builki təqdimat keçən illərdəkindən bir sıra nüanslarına görə fərqlənir. Çünki bu müsabiqə böyük Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunub.





Onu da diqqətinizə çatdırım ki, “Nəsimi ili” ilə bağlı keçirilən tədbirlər bununla yekunlaşmayacaq. Şəhər və rayonların mədəniyyət müəssisələrində







Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə, konfrans, dəyirmi masa, kitab sərgiləri və digər tədbirlər ilin sonuna kimi davam edəcək”.

Nazir vurğuladı ki, dahi şairin yubileyi və “Nəsimi ili”nin bu ilə təsadüf etməsinin xüsusi əhəmiyyəti var: “İki gün sonra Azərbaycanın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 ili tamam olur. O vaxt Heydər Əliyev respublika rəhbərliyinə gəlməsəydi, bu gün nə Nəsiminin yubileyini belə təmtəraqla, beynəlxalq səviyyədə qeyd edərdik, nə də başqa dahilərimizi dünyaya tanıdardıq. Məlumdur ki, Azərbaycan xalqının keçdiyi yola bəşəriyyətin verdiyi qiymət heç də hər zaman istədiyimiz kimi olmamışdır. Ona görə də Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə qayıdışı dünyaya sübut edir ki, biz böyük mədəniyyətə malikik”.

Əbülfəs Qarayev bildirdi ki, ümummilli lider Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyə gəldikdən sonra ilk addımlarından biri xalqımızın böyük şairi Nəsiminin adının dünyada tanıdılması olub. Ulu öndərin təşəbbüsü və səyləri ilə 1973-cü ildə dahi şairin anadan olmasının 600 illiyi UNESCO-da təntənə ilə qeyd olunub: “İndi isə UNESCO-nun mötəbər tədbirləri Azərbaycanda keçirilir. Bu da Azərbaycanın yarım əsrdə keçdiyi möhtəşəm inkişaf yolunun göstəricisi, ölkəmizlə bu təşkilat arasında əlaqələrin möhkəm özülünün təsdiqidir”.

Nazir müsabiqədə qalib olan jurnalistləri təbrik etdi, yeni yaradıcılıq uğurları arzuladı.

KİVDF-nin icraçı direktoru Vüqar Səfərli çıxış edərək hər il Mədəniyyət Nazirliyi ilə birgə təşkil olunan müsabiqələrdən söz açdı, bu əməkdaşlığa görə nazirliyə təşəkkürünü bildirdi, habelə media və mərkəzi icra hakimiyyəti orqanları arasında əməkdaşlığın genişləndirilməsində fəal roluna görə nazir Əbülfəs Qarayevə minnətdarlıq etdi. O, tədbirin əvvəlində təqdim olunan bədii hissənin iştirakçılarda xoş əhval-ruhiyyə yaratdığını da xüsusi vurğuladı.

Müsabiqə haqqında danışan icraçı direktor qeyd etdi ki, müsabiqəyə 23 kütləvi informasiya vasitəsindən 36 yazı daxil olub. Yazılar ekspertlər tərəfindən oxunub və qiymətləndirilib. Müsabiqənin nəticələrinə əsasən, 16 jurnalistin yazısı mükafata layiq görülüb.

Daha sonra qalib jurnalistlər mükafatlandırıldı.

“Xalq cəbhəsi” qəzetinin müxbiri Elçin İmaməliyev (Qaliboğlu) birinci (1000 manat), “Mədəniyyət” qəzetinin müxbiri Gülcahan Umudlu və “525-ci qəzet”in müxbiri Şahanə Mahmudzadə ikinci yerə (800 manat) layiq görüldülər. “Kaspi” qəzetinin müxbiri Fərid Hüseynov, “Şərq” qəzetinin redaktoru Ayyət Abdullayev və “Bakı-Xəbər” qəzetinin baş redaktor müavini Samirə Səfərova isə üçüncü yerin (500 manat) sahibi oldular. On nəfər jurnalistə isə həvəsləndirici mükafat (200 manat) təqdim edildi.

Mükafatların təqdim olunması zamanı çıxış edən millət vəkili Hikmət Babaoğlu Nəsimi irsinin təbliğinə xidmət edən müsabiqənin əhəmiyyətini vurğuladı, həmçinin bu mərasimin ulu şairin söz dünyasının zənginliyini, dərinliyini bir daha diqqətə çatdıran musiqili-ədəbi kompozisiya ilə süslənməsinə görə xüsusi minnətdarlığını ifadə etdi.

Sonda çıxış edən nazir Əbülfəs Qarayev qarşıdan gələn 22 iyul – Milli Mətbuat Günü münasibətilə bütün jurnalistləri təbrik etdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

**Fariz HÜSEYNOV**

## Aprel şəhidlərinin xatirəsi anılıb

Sumqayıt şəhər Səməd Vurğun adına Mərkəzi Kitabxananın təşkilatçılığı və Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə 2016-cı ilin Aprel döyüşlərinin şəhidləri Raquf Orucov və Seymur Baxışova həsr olunmuş anım tədbiri keçirilib.



Şəhidlərimizin doğum günləri ilə əlaqədar reallaşan tədbir onların uyuduqları son mənzildə - Sumqayıtdakı “Şəhidlər xiyabanı” memorial kompleksində təşkil olunub.

Yazıçı Hafiz İmamnəzərli igidlərimizin həyatı, keçdikləri şərəfli döyüş yolu haqqında məlumat verib.

Mərasimdə polkovnik-leytenant Raquf Orucov və gizir Seymur Baxışovun ailə üzvləri, döyüş yoldaşları, regional idarənin baş məsləhətçisi, Aprel şəhidi Əbdülməcid Axundovun anası Ceyran Axundova, şəhər MKS-nin direktoru Yeganə Əhmədova çıxış ediblər.

Mərkəzi kitabxananın Uşaq şöbəsinin nəzdində fəaliyyət göstərən Sabir Sarvan adına uşaq poeziya klubu üzvlərinin ifasında vətənpərvərlik mövzusunda şeirlər səslənib.

## Elmi Bərpa Mərkəzinin saytı yenilənib

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin yeni veb-saytı istifadəyə verilib.




Muzey-servetleri-ebm.az domen ünvanında fəaliyyət göstərən saytın dizaynı yenilənməklə yanaşı, funksionallığı artırılıb. Saytda “Tədris”, “Müzakirələr”, “Bərpa olunan eksponatlar”, “Qonaqlar” və “Nəşrlər” bölmələri əlavə edilməklə yanaşı, alt bölmələr də yenilənib.

İstifadəçi rahatlığını təmin etmək məqsədilə məlumatlar keçid saytın əsas səhifəsində yerləşdirilib.

Sayt Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir.

# Milli Kitabxanada “Azərbaycan məktəbi”nin 95 illiyinə həsr olunmuş sərgi

İyulun 12-də M.F.Axundzadə adına Milli Kitabxanada “Azərbaycan məktəbi” jurnalının 95 illiyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə jurnalın 95 illik fəaliyyətini əks etdirən sərgi ilə tanış olublar.




Təhsil naziri Ceyhun Bayramov çıxış edərək “Azərbaycan məktəbi” jurnalının ilk elmi-pedaqoji nəşr kimi ölkəmizdə xalq maarifinin inkişafında, pedaqoji və psixoloji elmlərin təşəkkülü və formalaşmasında müstəsna rolundan danışıb. Nazir ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə “Azərbaycan məktəbi” jurnalının inkişaf dövrünü xüsusi vurğulayıb.

Qeyd edib ki, jurnal Azərbaycan müəllimlərinin peşəkar inkişafına, bilik və bacarıqlarının artırılmasına, yeni təlim texnologiyalarının təbliğinə böyük töhfələr verib. Nazir bu jurnalın əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların xatirəsini minnətdarlıqla yad edib. Jurnalın elektron arxivinin yaradılmasının xüsusi əhəmiyyətini qeyd edən nazir mətbu orqanın kollektivini yubiley münasibətilə təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

“Azərbaycan məktəbi” jurnalının baş redaktoru Rahil Nəcəf jurnalın tarixi, fəaliyyətinin genişləndirilməsi barədə danışıb.

Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov bir əsrə yaxın tarixi olan nəşrin cəmiyyətə, maarifə verdiyi töhfələrdən bəhs edib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov “Azərbaycan məktəbi” jurnalının ölkəmizin təhsil sistemində oynadığı mühüm roldan danışıb, kollektivə uğurlar arzulayıb.

Sonda jurnalın əməkdaşlarına Təhsil Nazirliyinin fəxri fərmanı təqdim edilib.

# Avropa Gənclər Olimpiya Festivalı münasibətilə konsert

İyulun 21-dən 27-dək Bakıda Avropa Gənclər Olimpiya Festivalı (AGOF) keçiriləcək.

Bu münasibətlə iyulun 14-də Gəncə Dövlət Filarmoniyasında konsert keçirilib.

Konsertdə “Bakı 2019” AGOF könüllülərinin ulduz səfirlərindən muğam ifaçısı Mirələm Mirələmov və Kamilə Nəbiyeva, “O Səs Türkiyə” yarışmasının finalçısı Leyla Rəhimova çıxış edib.

Tədbirin keçirilməsində əsas məqsəd Avropa Gənclər Olimpiya Festivalının dəyərlərini, habelə idman və sağlam həyat tərzini əhali arasında təbliğ etmək olub. Bu konsertin keçirildiyi məkan isə təsadüfən seçilməyib – Gəncə şəhəri Avropanın İdman Şəhərləri və Paytaxtları Federasiyasının (ACES Europe) qərarına əsasən, 2019-cu il üçün idman şəhəri elan olunub.

Könüllülər tədbirin keçirilməsində mühüm rol oynayıblar, o cümlədən qonaqları festival haqqında ətraflı məlumatlandırıblar.

“Bakı 2019” Avropa Gənclər Olimpiya Festivalının korporativ direktoru Elçin Səfərov qeyd edib ki, zəngin idman ənənələrinə sahib Azərbaycanda son illərdə keçirilən beynəlxalq idman yarışları ölkə əhalisinin bu sahəyə marağının artmasına səbəb olub.



Məlumat verilib ki, yarışlarda iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə heyəti gələcək. Atletlər idmanın on növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

## “DokuBaku” – yerli və xarici sənədli filmlərin nümayişi

Oktyabrın 2-dən 6-dək Bakıda “DokuBaku” Beynəlxalq sənədli film festivalı keçiriləcək. Üçüncü dəfə təşkil ediləcək festival 2017-ci ildə İmam Həsənov və Veronika Yanatkova tərəfindən təsis olunub.

Bu il festivalın proqramına 15 tammetrajlı və 15 qısametrajlı beynəlxalq və yerli sənədli film daxildir. Bundan başqa, bu il ilk dəfə olaraq, festivalda Almaniya “qonaq ölkə” olaraq iştirak edəcək. Filmlər tamaşaçılara həm ingilis, həm də Azərbaycan dilində altyazılarla təqdim olunacaq. Layihənin əsas tərəfdaşları “Goethe-Institut Azerbaijan” mədəniyyət birliyi, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi, “The Landmark Hotel Baku” və “United Cultures”dir. Festivala son müraciət tarixi avqustun 15-də başa çatır.

# Şeir, incəsənət və mənəviyyat dünyası

## Azərbaycanda ikinci dəfə Nəsimi festivalı keçiriləcək

əvvəli səh. 1-də

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 11 yanvar tarixli sərəncamı ilə böyük şairin anadan olmasının 650 illiyi ilə əlaqədar bu il "Nəsimi ili" elan olunub. Builki festival da şairin fəlsəfi baxışlarını əks etdirən "Simadan – asimana" və onun öz kəlamından götürülən "Zərrə mənəm, günəş mənəm…" şüarları ilə keçiriləcək.

Layihə çərçivəsində Nəsiminin doğma diyarı Şamaxıda, paytaxt Bakıda müxtəlif sənət növlərini əhatə edən tədbirlər təşkil olunacaq.

Festivalda beynəlxalq miqyasda tanınmış nəsimişünaslar, şair və alimlər, filosoflar, rəssamlar, musiqi, rəqs və teatr qrupları iştirak edəcəklər.

Rusiyalı psixoloq Aleksey Sıtnikov, italiyalı şair David Rondoni, Böyük Britaniyada yaşayan soydaşımız, filosof və rəssam Zeyqəm Əzizov mühazirələrində Nəsimi fəlsəfəsi ilə dünyada məşhur olan bir sıra nəzəriyyə və konsepsiyalar arasında paralellər aparacaqlar. Almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hess və Böyük Britaniyada yaşayan tədqiqatçı Orxan Mirqasımovun Nəsimi və hürufilik haqda kitablarının təqdimatı olacaq. Nəsiminin bir seçilmiş qəzəlinə tədqiqatçı və şeir biliciləri öz şərhini təqdim edəcək, həmin təfsirlərin müzakirəsi keçiriləcək.

Həmçinin Şamaxı şəhərində İmadəddin Nəsimiyə həsr olunan müasir incəsənət instalyasiyasının açılışı olacaq.

Festival çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan "Söz" layihəsinin gənc şairlər arasında elan etdiyi Nəsimi ruhunda, yaxud bilavasitə onun şeirlərinə nəzirə olan ən yaxşı poetik əsər müsabiqəsinin nəticələri də elan olunacaq.

Festival günlərində müxtəlif sərgilər də təşkil ediləcək. Bakıda "Şirvanşahlar Sarayının sirləri" sərgisində yerli və xarici təsviri sənət ustalarının əsərləri – video art, qrafika, instalyasiyalar və kinetik obyektlər nümayiş olunacaq.

Azərbaycan Xalça Muzeyinin festival çərçivəsində söz ustadına həsr etdiyi xalça eskizi müsabiqəsinin yekun sərgisi də açılacaq. Ekspozisiyada müsabiqənin qalibi olan 3 əsər əsasında toxunan xalçalar, təqdim edilən işlər arasından münsiflər heyətinin seçdiyi xalça eskizləri nümayiş olunacaq.

Bakının Qala qəsəbəsində istifadəsiz sənaye anbarında isə "Danışan divarlar" incəsənət layihəsi çərçivəsində yaradılmış əsərlərin təqdimatı olacaq. Bu layihə çərçivəsində Azərbaycan, Braziliya, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların divarlar üzərində "urban/street art" (şəhər/küçə incəsənəti) janrında yaratdığı əsərlərlə tanışlıq olacaq.

"Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Daşın nəğməsi" IV Beynəlxalq heykəltəraşlıq simpoziumu və "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda VIII Beynəlxalq "Tullantıdan sənətə" sərgisi keçiriləcək.

Festival çərçivəsində Heydər Əliyev Mərkəzində sərgilər, o cümlədən Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin fərdi sərgisi açılacaq. Rəssamın məşhur "Ölümsüzlük otağı" ("Ölümsüzlük odası") əsəri də ekspozisiyada nümayiş olunacaq. Heydər Əliyev Mərkəzində festivalın qala-konserti keçiriləcək.

Festival günlərində keçirilən tədbirlərdə Azərbaycan incəsənət ustaları ilə yanaşı, ABŞ, Çin, Almaniya, Böyük Britaniya, Gürcüstan, Misir, Ukrayna, Fransa, Kanada, İordaniya və dünyanın bir sıra başqa ölkələrindən gələn ifaçılar da maraqlı proqramlarla çıxış edəcəklər.

# Nəsiminin yaradıcılığına həsr olunmuş rəsm müsabiqəsi davam edir

Mədəniyyət Nazirliyinin Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə keçirdiyi, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş "Şairə ithaf" adlı respublika rəsm müsabiqəsi davam edir.

Müsabiqədə Azərbaycan Rəssamlar İttifaqının üzvləri, o cümlədən respublikada fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin magistr tələbələri iştirak edə bilərlər. Təqdim olunacaq əsərlərə Mədəniyyət Nazirliyi və Rəssamlar İttifaqının mütəxəssislərindən və tanınmış rəssamlardan ibarət komissiya tərəfindən baxılacaq. Qaliblərə heykəltəraşlıq, rəngkarlıq, qrafika (o cümlədən kitab qrafikası), dekorativ-tətbiqi sənət nominasiyaları üzrə mükafat və diplomlar təqdim olunacaq.

Kitab qrafikası üzrə müsabiqəyə təqdim olunan əsərlər qrafikanın bütün texnikalarında (rəsm, ofort, linoqravüra, ksiloqrafiya, litoqrafiya, akvarel, qarışıq texnika və s.) yerinə yetirilə bilər. Bu nominasiya üzrə illüstrasiya-əsərlərin ölçüləri A3 və A4 formatında tərtibatsız-çərçivəsiz təqdim olunmalıdır.

Bağlı zərfin içində iştirakçı rəssamın soyadı, adı, atasının adı, təvəllüdü, telefon nömrələri, əsərin adı, ölçüsü və texnikası qeyd olunmalıdır.

**Müsabiqənin mükafat fondu:**
Birinci yer (bir nəfər) - 10 000 manat
İkinci yer (bir nəfər) - 7000 manat
Üçüncü (bir nəfər) - 5000 manat

**Həvəsləndirici mükafat:**
8 nəfər, hər biri - 1000 manat

Əsərlər oktyabrın 15-dək Azərbaycan Dövlət Rəsm Qalereyasına (Bakı şəhəri, Neftçilər prospekti, 49, Muzey Mərkəzinin 1-ci mərtəbəsində 11-ci otaq, əlaqə telefonları; + 994 493 93 85, +994 12 493 86 33) təqdim olunmalıdır.

# "Real həyat – real incəsənət"

## "Nəsimi ili"ndə daha bir müsabiqə

Xətai Sənət Mərkəzində "Nəsimi ili" çərçivəsində "Real həyat – real incəsənət" adlı respublika yaradıcılıq rəsm müsabiqəsi davam edir. Müsabiqə Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

Layihə realizm üslubunda işləyən rəssamlar arasında milli ruh və mövzulu yeni əsərlərin yaradılmasını stimullaşdırmaq və bu üslubun pərəstişkarı olan sənətsevərlərin maraqlarını təmin etmək məqsədi daşıyır. İştirak üçün yaş məhdudiyyəti yoxdur. Rəssamlar bir əsərinin fotosu ilə bərabər ad və soyad, təvəllüd, əlaqə nömrəsi, əsərin adı, ölçüsü və texnikası barədə məlumatı noyabrın 15-dək Xətai Sənət Mərkəzinin Whatsapp +994 51 310 74 01 nömrəsinə göndərməklə müsabiqədə iştirak edə bilərlər.

# "Naxçıvanın tarixi abidələri" mövzusunda etüd pleneri

Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında 7-12 və 12-17 yaş qruplarından ibarət dərnək üzvləri arasında "Naxçıvanın tarixi abidələri" mövzusunda rəsm üzrə etüd pleneri keçirilib.

Plener şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, gənc nəslin mənəvi, bədii və estetik dünyagörüşünün formalaşdırılması məqsədilə təşkil edilib.

Şagirdlərə məlumat verilib ki, muxtar respublikada 1200-dən artıq tarixi-mədəniyyət abidəsi mövcuddur. Bu abidələrdən 57-si dünya, 496-sı ölkə əhəmiyyətlidir. Bu abidələr xalqımızın keçmişinin, qədim mədəniyyətinin göstəricisi, daş yaddaşıdır.

Sonra şagirdlər Möminə xatın türbəsinin, Xan sarayının, daş eksponatların rəsmlərini çəkiblər.

# Tələbələr Bolqarıstanda festivala qatılıblar



Bolqarıstanın Plovdiv şəhərində keçirilən "Birlikdə yaradıcılıq" festivalında ölkəmizi Azərbaycan Dillər Universitetinin tələbələri Lalə Rüstəmli və Bəyaz Hüseyn təmsil edib.

Frankofon Universitetlər Agentliyi tərəfindən təşkil olunmuş festival Orta və Şərqi Avropada fransız dilində təhsil alan tələbələr arasında keçirilib.

Məlumat üçün qeyd edək ki, festivalda 17 ölkədən təmsilçilər iştirak edib. Tələbələrimiz tərəfindən ölkəmizin ərazisi, regionları, iqtisadiyyatı, mədəniyyəti, mətbəxi, qeyri-maddi mədəni irsi haqqında təqdimat nümayiş olunub. Həmçinin tədbirdə milli süfrə hazırlanıb. Digər tədbir iştirakçılarına suvenirlər və kitablar hədiyyə olunub.

Tədbirdə "Nəlbəki" və UNESCO-nun siyahısına daxil edilmiş "Yallı" milli rəqsləri ifa olunub.

# Lənkəran teatrı İrandan diplomla qayıdıb

Lənkəran Dövlət Dram Teatrının truppası İran İslam Respublikasının Zəncan şəhərində "El" Milli Teatr Festivalında iştirak edib.

Teatrın direktoru Tofiq Heydərovun verdiyi məlumata görə, iyulun 8-dən 12-dək davam edən festivalda kukla, pantomima, komediya, faciə janrlarının müxtəlif səhnələrdə və küçə tamaşaları şəklində nümayişləri olub.

Lənkəran Dövlət Dram Teatrı sənət yarışmasına Emil Əskərovun müəllifi və quruluşçu rejissoru olduğu "Sehrbazlar dərəsi" nağıl-tamaşası ilə qatılıb.

Süjet xətti Azərbaycan folklorunun ənənələrindən qaynaqlanan səhnə əsərinin quruluşçu rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur. Rolları Əməkdar artist Sucəddin Mirzəyev, aktyorlar Emin Fərzullayev və Sayad Əliyev ifa ediblər.

Bağlanış mərasimində Lənkəran Dövlət Dram Teatrı festivalın təşkilat komitəsi tərəfindən diplom və xatirə hədiyyəsi ilə mükafatlandırılıb.



# Bitən mövsümdən akkordlar



əvvəli səh. 1-də

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı 109-cu mövsümünə 14 iyulda yekun vurdu. Mövsümün son tamaşası Xalq artisti Afaq Bəşirqızının iştirakı ilə dahi Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" ikihissəli musiqili komediyası oldu. Qeyd edək ki, sonuncu quruluşun premyerasından – 1998-ci ilin dekabr ayından indiyə qədər uğurla nümayiş olunan tamaşanın rejissoru Xalq artisti Cənnət Səlimovadır.

Dövlət Gənc Tamaşaçılar Teatrı mövsümün sənət axşamında İsveç dramaturqu Lars Norenin "Müharibə" pyesi əsasında teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Bəhram Osmanovun quruluş verdiyi tamaşanı təqdim etdi. Onu da qeyd edək ki, teatrın 90 yaşı təntənə ilə qeyd edilən bu mövsümdə ümumilikdə 8 yeni tamaşaya quruluş verilib. Hazırda Xalq artisti Cənnət Səlimova Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" əsərinə quruluş verir. Əməkdar artist Nicat Kazımov isə "Sindibadın sərgüzəştləri" tamaşasını uşaqlar üçün hazırlayır. Hər iki səhnə əsəri yeni mövsümdə tamaşaçıların ixtiyarına veriləcək.

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı iyulun 14-də üç seansda iki tamaşa ilə balacalarla sağollaşdı. Həmin gün türk xalq nağılı əsasında hazırlanmış "Keloğlan" (quruluşçu rejissor Qurban Məsimov) və rus xalq nağılı əsasında səhnələşdirilən "Qoğal" (rus dilində; quruluşçu rejissor Eduard Qaydar) tamaşaları göstərildi. Onu da qeyd edək ki, bu mövsüm ərzində 4 yeni tamaşa ərsəyə gətirən teatr yeni mövsümə də səylə hazırlaşır.

İyulun 14-də Azərbaycan Dövlət Pantomima Teatrı "Kişilər və qadınlar" adlı yeni tamaşası ilə 26-cı mövsümü bağladı. Tamaşaya quruluşu Xalq artisti Bəxtiyar Xanızadə verib.

Bakı Uşaq Teatrı hər il teatr mövsümünün açılışı və bağlanışı zamanı iki tamaşa ilə (böyüklər və uşaqlar üçün) çıxış edir. Bu il teatr özünün 17-ci mövsümünün bağlanışı münasibətilə iyulun 16-da Teatr Xadimləri İttifaqının zalında balacalar üçün "Sehrli tütək" tamaşasını göstərdi. 17 iyulda isə insan alverinə qarşı mübarizəyə həsr olunmuş "Günahsız günahkarlar" tamaşası nümayiş olunacaq. Həmçinin teatrın mövsüm ərzində fərqlənən əməkdaşları və media nümayəndələri mükafatlandırılacaq.



Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı mövsümü qastrollarla bitirib. Kollektiv Sevinc Elsevərin Xocalı soyqırımına həsr olunmuş "Ürəyində arzu tut" tamaşası ilə Gəncədən sonra, Şəkidə və Sabirabadda (16 iyul) çıxış edib.

Bu il 30 yaşını qeyd etməyə hazırlaşan Yuğ Dövlət Teatrı da mövsümü məhsuldar başa vurub. Mövsümün sonuna doğru 2 yeni tamaşanın premyerası keçirilib. Nobel mükafatçısı Orxan Pamukun "Mənim adım qırmızı" romanının motivləri əsasında "Mən ağacam" tamaşasına Əbdülqəni Əliyev, Norveç yazarı Henrik İbsenin "Vahimə" əsəri əsasında səhnələşdirilən "Vəsvəsə" tamaşasına isə Gümrah Ömər quruluş verib. "Vəsvəsə" ilə mövsümə yekun vuran teatr tamaşaçılarının görüşünə beynəlxalq layihə ilə gələcək. Bolqar rejissor Xristo Stoyçev teatrda V.Şekspirin "III Riçard" pyesini yeni səhnə redaksiyasında tamaşaya qoyur.



Bakıda mövsümü başa vuran "Yuğ"çular Şamaxı, Quba, Xaçmaz, İsmayıllı və Abşeron rayonlarına qastrola yollanıblar. Teatrdan bildirilib ki, yaradıcı heyət qastrolda "Sonuncu" tamaşası ilə çıxış edəcək. Yazıçı Pərvinin rus klassiki A.Çexovun yaradıcılığından bəhrələnərək qələmə aldığı pyes əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru və səhnə tərtibatçısı Xalq artisti Ramiz Həsənoğludur.

***

Sumqayıt Dövlət Dram Teatrının 50-ci mövsümünün son tamaşası iyulun 19-da nümayiş etdiriləcək. Teatr yubiley mövsümünü yazıçı-dramaturq Əli Əmirlinin "Sevgilim Sumqayıt" pyesinin maraqlı səhnə versiyası ilə bağlayacaq. Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi tamaşa teatr kollektivinin Sumqayıtın şəhər statusu almasının 70 illiyinə hədiyyəsidir.

Cənub bölgəsinin teatr mənzərəsini formalaşdıran Lənkəran Dövlət Dram Teatrı da rəngarəng repertuarı ilə yadda qalıb. Mövsüm boyu yeddi tamaşanı teatrsevərlərin ixtiyarına verən kollektiv iyulun 16-da Bəhram Beyzayinin (İran) "Senemar" əsərinin tamaşası ilə pərdələri endirib. Əlavə edək ki, yaradıcı kollektiv mövsümün premyeralarından olan bu tamaşanı avqustun 12-dən 19-dək Tehranda keçiriləcək 9-cu Milli Adət və Ənənə Teatr Festivalına da aparacaq.

Qastrollar, beynəlxalq festivallarla dolğun mövsüm yaşayan Gəncə Dövlət Dram Teatrı iyulun 12-də mövsümünə yekun vurub. Nodar Dumbadzenin "Hellados" əsəri əsasında hazırlanan eyniadlı tamaşa teatrsevərlərə təqdim olunub. Tamaşanın quruluşçu rejissoru İradə Gözəlovadır. Yeni mövsümü sentyabrın 27-də açacaq teatr kollektivi həmin gün tamaşaçılarına "Hamlet" kriminal melodramını təqdim edəcək.

Yaranmasının 140 illiyini qeyd edən Şəki Dövlət Dram Teatrı isə mövsümünü iyulun 14-də başa vurub. Teatrsevərlərə Xalq yazıçısı Elçinin "Teleskop" mistik komediyası təqdim olunub. Tamaşanın quruluşçu rejissoru Orxan Həmidlidir.

Qusar Dövlət Ləzgi Dram Teatrı isə 27-ci mövsümü iyulun 12-də İsi Məlikzadənin "Hərənin öz ulduzu" tamaşası (quruluşçu rejissor Laləzar Hüseynova, quruluşçu rəssam Marina Mahmudova, musiqi tərtibatçısı Şaiq Qardaşov) ilə başa vurub.

Füzuli Dövlət Dram Teatrı mövsümü Əli Səmədlinin "Əhmədin vəfalı xoruzu" tamaşası ilə bağlayıb. Tamaşa Horadiz şəhər 1 saylı uşaq bağçası və körpələr evində təqdim olunub. Sehran Xanlarovun quruluş verdiyi səhnə əsərinin rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Ziyad Süleymanovdur.

**HƏMİDƏ**

# Tanınmış fotojurnalist Hüseyn Hüseynzadə vəfat edib



Azərbaycan foto sənətində əvəzsiz xidmətləri olmuş tanınmış fotojurnalist Hüseyn Hüseynzadə uzun sürən xəstəlikdən sonra 2019-cu il iyulun 13-də vəfat edib.

H.Hüseynzadə 11 yanvar 1935-ci ildə anadan olub. Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. Foto sənətinə "Vışka" qəzetində fotojurnalist kimi başlayıb, "Kommunist", "Pionerskaya pravda", "Komsomolskaya pravda" və s. qəzetlərlə əməkdaşlıq edib. Daha sonra müstəqil fotoqraf kimi çalışıb. "Neft gəldi" və "Qazma ustası Faiq Əliyev" fotoşəkilləri 1964-cü ildə keçirilən ümumittifaq sərgisində 1-ci dərəcəli diploma layiq görülüb. "Press Foto-62" beynəlxalq sərgisi, Berlində "İnterpresfoto" sərgisinin mükafatlarını qazanıb. Hüseyn Hüseynzadənin təşəbbüsü ilə ilk dəfə milli foto tarixində "Azərbaycanın kulinariya ensiklopediyası" yaranıb. 60-dan çox kitab-albomun müəllifidir.

Azərbaycan Fotoqraflar Birliyi mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

## Qarası çox son foto

Bilirdim ki, Azərbaycan foto sənətinin ən əvəzsiz ustalarından olan Hüseyn Hüseynzadə lap çoxdan ağır xəstədir.

Anlayırdım ki, bu acı xəbəri hər növbəti gündə eşidə bilərəm. Lakin heç istəmirdim ki, o gün yetişsin.

Hərçənd xeyli müddət idi ki, ömrü boyu həyatdan gözəl anları tutaraq əbədiləşdirməyi bacaran bu insançün yaşanan hər yeni gün əzab-əziyyət demək idi.

Hüseyn Hüseynzadə Azərbaycan fotoçuluğunda o zaman parlamışdı ki, bu meydanda əsas söz sahibi başqa millətdən olanlar idi.

Və insanı da, şəhərimizi də, abidələri, tikililəri və təbiəti də özünəməxsus bədiiliklə görüb əks etdirməyə qadir, Rubinçik kimi mahirləri də diksindirməyi bacaran Hüseyn Hüseynzadə çıxdı ortalığa.

Ənənəvi olaraq bəlli fotoqrafların imzaları ilə nəşr edilən fotoalbomların neçəsi Hüseyn Hüseynzadənin müəllifliyi ilə buraxılmağa başladı.

Bilməyənlər bilsin ki, həmin dövrdə - 1960-1970-ci illərdə həmin sahədə elə amansız rəqabət vardı ki, üstün sənətlərindən savayı yaxşı arxaları, əlaqələri, təsir imkanları olanlar heç vəchlə onların söz sahibi olduğu bu əraziyə digərinin qatılıb qabağa çıxmasına asanlıqla macal verməzdilər.

Hüseyn bu uğura böyük sənətinin danılmaz gücü ilə nail olmuşdu.

Foto sənətinin hər janrında usta idi, lakin portret yaratmaqda qabiliyyəti məxsusi idi.

İşıq-kölgə keçidlərindən məharətlə istifadə etməklə o fotoportretləri rəssam işi səviyyəsinə qaldırırdı. 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Hüseyn fotoda jonqlyorluqlarını edərək füsunkar bədii lövhələr yaradanda indiki növbənöv fotoşop fəndləri hələ gələcəkdə idi.

Həsən Turabovun son dərəcə ifadəli bir portretini çəkmişdi. Alaqaranlıq fonda siqaretin tüstüsü o qədər canlı görsənirdi ki, az qala tütünün qoxusunu da hiss edirdin.

Bir dəfə rəhmətlik Həsən Turabov zarafatla dedi ki, Hüseyn məndən əvvəl siqaretin portretini çəkib. Əlavə də elədi ki, neçə dəfə ürəyimdən keçib siqareti tərgitim. Amma hər dəfə Hüseyn çəkən fotoda siqaretin tüstüsünün necə cazibəli buruldüğunu, necə dumana çevrildiyini yadıma salanda təzədən çəkmək həvəsim yaranıb.

Xatırlayıram, camaat arasında Molokan bağlı deyilən tanış məkandakı xudmani emalatxanasında uzun söhbətlərimizi, yeni kitablarım üçün şəklimi çəkməsini (1980-ci illərdə çəkdiyi fotolarımdan biri kompüterimin yaddaşından rastıma çıxdı).

Şəklə baxıram, elə indiymiş kimi səsi gəlir qulağıma: "Köynəyinin boyunluğunu bir az qaldır"...

Elə gözəl yaradırdı ki, obyektivin nəzərlərini elə detallara zilləyə bilirdi ki, 20-30 fotosunun təxminən hamısı canayatan alınırdı.

Adətən portret çəkən bir fotoqrafın 30 kadrından 3-4-ü babat alınanda artıq bu yaxşı nəticə sayılır. Hüseyndəsə, təxminən çıxdaş ediləsi kadr olmurdu. Hərəsi bir cür gözəl idi.

Nədirsə, əziz Hüseyn müəllimlə ayrılığın bu ilk günündə yadıma düşür Tofiq Quliyevin söhbəti.

1979-cu ilin noyabrı. Vaqif Mustafazadə o vaxt böyük uğur qazanmışdı. Burda, Bakıda onu Bəstəkarlar İttifaqına üzvlüyə qəbul etmək istəmirdilər, Vaqifsə Monakoda caz bəstəkarı olaraq qapalı müsabiqədə birinci yeri tutmuşdu. O vaxt onunla radio üçün geniş müsahibə yazmışdım. Efirə getməsə də, özümdə saxlamışdım. Vaqifdən qalan son geniş müsahibə oldu. Və həmin ərəfələrdə Vaqif Tofiq Quliyevin "Qızıl üzüy"ünü və daha bir neçə əsərini çalaraq lentini bəstəkara vermişdi ki, dinləyib fikrini bildirsin.

Tofiq müəllim qəhərlənərək nağıl edirdi ki, Vaqif 2-3 dəfə zəng vurmuşdu, soruşmuşdu nə oldu, qulaq asa bildinizmi?

"Hər dəfə üzr istəmişdim ki, bağışla, Vaqif, imkanım olmayıb. Bir gün yenə zəng vurdu. Heç o sözə başlamamış dedim ki, Vaqif, bilirəm indi Daşkəndə qastrola gedirsən, qəti söz verirəm ki, sən qayıdanadək mütləq lenti dinləyəcəyəm.

Vaqif bir az utana-utana dedi ki, yox, Tofiq müəllim, indi başqa şeyə görə zəng vurmuşam. İstəyirəm həmin yazıları ayrıca val kimi buraxdırım. Valın üstündə də ikimizin fotomuzun olmasını arzulayıram. Vaxtınız olsaydı gələrdiniz, fotoqraf dostum Hüseyn Hüseynzadənin emalatxanasındayam, həm slaydlar edərdi, həm bir neçə başqa fotomuzu çəkərdi".

Həmin gün Hüseyn Vaqifin portretlərini də lentə alıb, Tofiq müəllimlə çox gözəl fotolarını da.

Elə valın üstündə də həmin şəkillərdən biri getdi.

Bunlar Vaqifin son fotolarıdır.

Bir həftə sonra o artıq yox idi...

Hesabla Hüseyn Hüseynzadənin zəngin və maraqlı arxivi olmalı idi. Son dövrlərdə maraqlanmışdım, səhhətinin vəziyyətini də bildiyimdən narahat idim ki, itə-bata düşər. Ona görə də həmkarlarından olan dostlara demişdim ki, gözdə-qulaqda olsunlar. Xoş olmayan soraqlar almışdım.

Hər halda yenə ümidimi itirmirəm. Hüseyn Hüseynzadənin arxivini hökmən tapıb toplamaq lazımdır. Əvvələn, heç də çəkdiklərinin hamısı çap olunmamışdı, ikincisi də oçağkı poliqrafiya hara, indiki hara?!

Ən azı Hüseyn Hüseynzadənin seçmə işlərindən ibarət bir nəfis albom buraxmaq olar.

Hüseyn insan kimi də saf, səmimi, həlim təbiətli, mehriban bir varlıq idi.

Yoxluğunu düşünmək ürək sıyıran qüssə gətirir.

...Rəngli fotolardakı misilsizliyi öz yerində, ancaq mən onu ağ-qara çəkilişlərdə göstərə bildiyi çalar bolluğuna görə tam müstəsna sayırdım.

Nə heyf ki, öz ömrünün sonluğunun qara rəngləri çox, həm də tünd oldu...

**Rafael HÜSEYNOV**
**akademik**

*Yazı müəllifin sosial şəbəkədəki səhifəsindən götürülüb*

# Sərdar şair – Qazi Bürhanəddin

Ana dilində şeirimizin ilk böyük nümayəndələrindən olan Qazi Bürhanəddin Əhməd XIV əsrdə yaşayıb-yaradıb. Təkrarsız yaradıcılığı ilə dilimizi sənət, şeir dili kimi yüksək bir zirvəyə qaldırıb. Azərbaycan türkcəsində ilk dəfə divan yaradan hökmdar-şair həm də öz adı ilə anılacaq dövlət qurub.

Qazi Əhməd Şəmsəddin Məhəmməd oğlu 1344-cü ildə Türkiyənin Kayseri (Qeysəriyyə) şəhərində anadan olub. Qədim türk-oğuz boylarından sayılan Salur tayfasına mənsub olan Əhməd kiçik yaşlarında anasını itirir. 1356-cı ildə atası ilə indiki Suriyanın Dəməşq şəhərinə gedir, bir müddət sonra Kayseriyə qayıdırlar. Atası sarayda qazı kimi işə düzəlir. O isə öz dövrünə görə yaxşı təhsil alır, məşhur alim Qütbəddin Razinin tələbəsi olur. Əvvəlcə Misirdə, sonra Dəməşqdə ilahiyyat, tibb, nücum, fəlsəfə, riyaziyyat və digər elmləri mükəmməl öyrənir. Kayserinin Ərətna vilayətinin hökmdarı Məhəmmədin qızı ilə ailə qurur. Bundan bir müddət sonra atasının yerinə qazı təyin edilir. Bu vəzifədə on ildən artıq çalışır.



Qazi Bürhanəddin Əhməd öz yüksək savadı, mədəniyyəti və ədaləti ilə xalqın hörmətini qazanır. Hökmdar Məhəmməd öldükdən sonra taxt-taca oğlu Əli sahib olub. Əli yaşlandığı üçün dövlət işlərini Qazi Bürhanəddinə tapşırır. 1378-ci ildə onu vəzir təyin edir. İki ildən sonra Əli də vəfat edir. Bürhanəddin onun azyaşlı uşağına atabəylik edir. Beləliklə, dövlətin bütün rəhbərliyi onun əlində cəmlənir.

1381-ci ildə Qazi Bürhanəddin öz adı ilə anılan bir dövlət yaradır və sultan elan edilir. Bundan sonra onun bütün həyatı çoxsaylı yürüş və döyüşlərdə keçir. Öz aralarında daimi çəkişmələr aparan qaramanlı, osmanlı, türkmən tayfaları arasındakı düşmənçiliyi yox etmək və ölkədə qanun-qaydanı möhkəmləndirmək məqsədilə çalışır. Xarici siyasətdə uzaqgörənlik və müdriklik nümayiş etdirir. Osmanlı sultanı I Bəyazid, Qızıl Orda xanı Toxtamış, Əmir Teymur kimi təhlükəli rəqiblərin və onlarla xırda əmirin əhatəsində qalan Bürhanəddin 17 il öz ölkəsində sülhü və əmin-amanlığı qoruya bilir. Siyasi vəziyyət tələb edəndə Bəyazidlə, yaxud Əmir Teymurla açıq mübarizəyə girir. Zərurət yarandıqda isə rəqibi Toxtamış xanla ittifaq bağlayır. 1392-ci ildə Çorum yaxınlığındakı Qırxdilim adlı yerdə Osmanlı ordusunu məğlub edir. Döyüşdə İldırım Bəyazidin oğlu Ərtoğrul həlak olur.

Ölkə iqtisadi və hərbi cəhətdən möhkəmlənir. Sultan Bürhanəddin ticarətin, maarif və mədəniyyətin inkişafına, quruculuq işlərinə xüsusi diqqət yetirir. Yeni-yeni mədrəsələr, karvansaralar tikdirir və körpülər saldırır. Siyasi hakimiyyəti dövründə ədəbi yaradıcılığa da vaxt ayırır. Din və təsəvvüflə bağlı şeirlər yazır. Sərdar şairin ana dilində bir divanı, ərəbcə iki əsəri günümüzə gəlib çıxıb. Qazi Bürhanəddinin fəlsəfi konsepsiyası "Tərci üt-tövzih" ("İzahların təkrarı") və "İksir-üs səadət fi əsrar-ül ibadət" ("Səadət iksiri ibadət əsrarında") adlı ərəbcə yazdığı risalələrdə əksini tapıb. Bu risalələrdə onun sufi və hürufi fəlsəfəsindən geniş bəhrələndiyi aydın görünür.

Şairin Azərbaycan dilində "Divan"ı müəllifin sağlığında xəttat Xəlil ibn Əhməd tərəfindən qələmə alınıb və hazırda Londonda muzeydə saxlanılır. Onu Londona ingilis səfirliyinin işçisi 1890-cı ildə İstanbuldan aparıb. "Divan" tanınmış ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü mərhum Əliyar Səfərli tərəfindən 1988-ci ildə kitab şəklində çap olunub.

Görkəmli şairdən bəhs edən akademik Aqafengel Krımski yazır: "Bürhanəddinin "Divan"ı qeyri-bərabər həcmli iki hissədən ibarətdir. İlk və böyük bölüm qəzəllərdir. İkinci və nisbətən kiçik hissədə hər şeydən əvvəl iyirmiyə qədər rübaisini qeyd etməliyik. Bunlar türkcə yazılmış ilk "rübaiyyat"dır...".

Şairin məhəbbət lirikası öz bənzərsizliyi ilə bir çox türkdilli şairlərə örnək olub. Belə ki, onun şeirləri xüsusilə folklora yaxınlığı və fars-ərəb mənşəli sözlərin nisbətən az işlədilməsi, həmçinin gözəl bənzətmə və istiarələrlə seçilib.

1388-ci ildə Amasiya əmirini məğlub edib Turhal qalasını ələ keçirən şair bundan təsirlənərək sevgilisinin süzgün baxışlarını həmin qalaya mancanaqla atılan daşlara bənzədir:

*Cövrü oxları ki, qəmzən könül evinə atar,*
*Məncəniq daşlarıdır ki, yeni Turhaldurur...*

Onun yaradıcılığı Azərbaycan ədəbiyyatının mühüm mərhələlərindən birini təşkil edir. O həm də Azərbaycan ədəbiyyatına tuyuq şeir janrını gətirib. Sənətkarın poeziyası Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Kişvəri, Həbibi, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif və bu kimi bir çox şairlərin yaradıcılığına ciddi təsir göstərib. Buna görə də onun poeziyası bir çox türkdilli ölkələrdə tanınıb, adı Orta əsr təzkirəçi və tarixçiləri tərəfindən tez-tez xatırlanıb.

Qazi Bürhanəddin 1398-ci ildə Ağqoyunlu hökmdarı Qara Yoluq Osman bəylə döyüşdə həlak olub, Sivas şəhərində dəfn edilib. Ölkədə hakimiyyət oğlu Elməddin Əli Çələbiyə keçsə də, dövlət həmin ildə I Bəyazid tərəfindən süquta uğradılır.

**S.FƏRƏCOV**

# Rus poeziyasının sevilən xanımı

Böyük təsirə malik əsərlər ən dərin iztirabdan, sürəkli əzab və hədsiz məhəbbətin nakam sonluğundan doğulur. Böyük rus tənqidçisi N.Q.Çernişevski yazırdı: "Sənət əsəri, doğrudan da, o zaman gözəl ola bilər ki, sənətkar öz əsərində bütün vermək istədiklərini vermiş olsun".

Rus mədəniyyətinin ən zəngin inkişaf mərhələsi, heç şübhəsiz ki, XIX əsr hesab olunur. Həmin əsrin ənənələrinə istinad edərək yüksələn XX əsr rus ədəbiyyatı da özünün şeir-sənət korifeyləri ilə möhtəşəmdir. Yaradıcılıqları ilə təkcə rus ədəbiyyatında deyil, həm də dünya poeziyasında mühüm yer tutan A.Blok, N.Qumilyov, V.Mayakovski, S.Yesenin, B.Pasternak kimi ədəbi şəxsiyyətləri xatırlatmaq kifayətdir. Onlarla bir vaxtda poeziya səltənətinin taxt-tacında əyləşən və əbədi şöhrət qazanan xanım şairlər də yazıb-yaratmışlar – Anna Axmatova, Marina Svetayeva kimi... Azərbaycanda da vaxtilə az oxunub öyrənilən Anna Axmatova son zamanlarda bizim şair-tərcüməçilərin (Çingiz Əlioğlu, Vaqif Cəbrayılzadə, Mahir Qarayev və b.), tədqiqatçıların diqqətini cəlb etməkdədir.

Axmatovanın poeziyasında daha çox qəm, kədər motivləri, "dünyəvi iztirab" üstünlük təşkil edir. "Ruhun, qəlb aləminin dialektikası" onun şeirlərində incə lirizmlə ifadə olunmuşdur. Zəmanəyə, cəmiyyətə söyləmək istədiklərini o, birbaşa deyil, özünəməxsus simvolik obrazlarla deməyi bacarırdı. Əsərlərində bəşəri ideyalar, əzəli və əbədi mövzular, məhəbbət, gözəllik, xəyanət, qısqanclıq kimi hisslər, fəlsəfi mühakimələr, müdrik deyim tərzi başlıca yer tutur.

*Təkcə qəm-kədərdir əbədi, heyhat,*
*Bir də hər səslənən şahanə kəlmə...*
*Öz doğma balanın boğazından kəs,*
*Bir tikə çörək ver o yad yetimə...*

Ç.Əlioğlunun tərcüməsində verdiyimiz bu misralarda "Dirilməkdən, ölməkdən, yaşamaqdan yorulan" şair insanlığı ədalətə, insaf və humanizmə səsləyir. A.Axmatova mübariz şair olmaqla yanaşı, könülləri riqqətə gətirən lirik şeirlərin də müəllifidir. Şairin lirik əsərləri ilə yaxından tanış olduqca, onlarla səmimi ünsiyyət tapdıqca, bu həqiqət inandırıcı şəkildə üzə çıxır.

Anna Andreyevna Axmatova (Qorenko) 1889-cu ilin 23 iyununda Odessada, zadəgan ailəsində dünyaya göz açıb. Atası mühəndis-mexanik olub. Bəzi mülahizələrə görə, Anna özünü ana tərəfdən Qızıl Orda xanı Əhməd xanın nəslindən hesab edirdi və buna görə sonradan Axmatova təxəllüsünü (ulu nənəsi, tatar knyazları nəslindən olan Praskovya Axmatovanın xatirəsinə ehtiram olaraq) götürmüşdü.

1907-ci ildə Kiyevdə gimnaziya təhsilini başa vuran Anna on bir yaşından şeirlər yazıb. 1912-ci ildə "Axşam" adlı ilk şeirlər toplusu işıq üzü görür. Tənqidçilər tərəfindən müsbət qarşılanan Axmatova tez bir zamanda böyük rus şairləri cərgəsinə qoşulur. Bir qədər keçdikdən sonra onun adı artıq Aleksandr Blokla yanaşı çəkilirdi. Hətta Blok vəfat etdikdən sonra, tənqidçilərdən biri yazırdı: "...rus şairləri arasındakı birinci yer mübahisəsiz Axmatovanındır".



1908-1910-cu illərdə ali təhsilini Kiyev Universitetində, sonradan N.P.Rayevin Sankt-Peterburqda təsis etdiyi Qızlar üçün Ali Tarix-Ədəbiyyat Universitetində davam etdirib. 1910-cu ildə şair Nikolay Qumilyov ilə ailə qurub. 1912-ci ildə oğulları – gələcəyin məşhur yazıçı və tarixçisi Lev Qumilyov dünyaya gəlib. 1914-cü ildə "Təsbeh" adlı ikinci kitabı işıq üzü görüb. Sonra daha bir neçə şeirlər toplusu çapdan çıxıb.

1921-ci ildə həyat yoldaşı Nikolay Qumilyov əksinqilabi fəaliyyətdə ittiham edilərək güllələnir. Bir il sonra Anna sənətşünas Nikolay Puninlə nikah bağlayır. 1923-cü ildən 1934-cü ilə qədər, demək olar ki, çap olunmayıb. Daima ora-bura köçən şairə yazdığı şeirlərin çoxunu yollarda itirib. Axmatova o vaxtlar "Özüm haqda bir-iki kəlmə" başlıqlı qeydlərində yazırdı: "Mənim köhnə şeirlərimi yada salan, təzələrini isə çap edən yoxdur". Cüzi sayda işıq üzü görən şeirlər isə ciddi senzuraya məruz qalırdı.

1938-ci ildə oğlu Lev Qumilyov azadlıqdan məhrum edilir. Şairə 1935-1940-cı illərdə o illərin repressiyalarını və özünün ağır həyatını əks etdirən məşhur "Rekviyem" əsərini yazır. "Rekviyem" avtobioqrafik poeması 1930-cu illər repressiyalarına həsr olunmuş ilk bədii əsərlərdən hesab olunur. Oğlunun həbsindən sonra o da SSRİ Yazıçıları İttifaqından xaric edilmişdi.

1951-ci ildə A.Fadeyevin təşəbbüsü ilə A.Axmatova Yazıçılar İttifaqına üzvlüyə bərpa olunur. 1962-ci ildə A.Axmatova ədəbiyyat üzrə Nobel mükafatına təqdim olunur. Elə həmin il İtaliyada "Etna-Taormina" mükafatına layiq görülür. 1965-ci ildə Oksford Universitetinin fəxri doktoru diplomunu alır. Həmin il "Vaxt Tanrısı" adlı şeirlər toplusu işıq üzü görür. A.Axmatova 1966-cı il 5 martda vəfat edib.

***

Şöhrəti bu gün də azalmayan, hələ sağlığında rus ədəbiyyatının klassiki hesab olunan şairə, yaradıcılığı ilə yanaşı, faciəvi taleyi ilə də məşhurdur. Doğrudur, A.Axmatova özü həbs edilməyib, sürgün olunmayıb. Amma sovet rejimi onun doğmalarına qarşı amansız davranıb. Əri Nikolay Qumilyovun güllələnməsindən sonra oğlu Lev Qumilyov isə ömrünün 10 ilini barmaqlıqlar arxasında keçirib. Özünün isə yaradıcılığı daimi qadağa altında olub. Əsərlərinə qoyulan qadağalara, Kommunist Partiyasının ona qarşı nifrətinə baxmayaraq, A.Axmatova sağlığında rus ədəbi mühitini daima öz ətrafına yığa bilib, dövrünün ən istedadlı gəncləri ilə əhatə olunub.

Şair İ.Brodskinin dəqiq ifadəsinə görə, Axmatova ömrünün son illərini "ölkənin köhnə və yeni paytaxtları arasında gedib-gələn, evsiz-eşiksiz kraliça kimi keçirmişdir".

O, xarici dilləri asan öyrənirdi, fransız dilini uşaqlıqda bacısına keçilən dərslərdə mənimsəmişdi. Ailə həyatı qurduqdan sonra Parisdə olarkən fransızcasını təkmilləşdirdi və bu dili bütün həyatı boyu unutmadı.

Rus ədəbiyyatı qarşısında böyük xidmətlər göstərən Axmatova öz sahəsində durmadan işləyib, rus ədəbiyyatına səmərəli töhfələr verərək böyük təsir göstərib. Ədəbiyyata yeni ruh, yeni baxış və yeni istiqamət gətirib.

Hər şeydə - hisslərin çılğınlığında, mənanın dərinliyində, fikrin emosionallığında kişilərlə bərabərliyə üstünlük verirdi. Bir zaman ulu nənəsinin şərəfinə tatar ismini özünə təxəllüs seçəndə qayğısız Annanın ağlına gəlməzdi ki, sonralar Axmatova yanğısıyla belə yazacaq:

*Taleyimə yapışıb.*
*Fəlakətdir siqləti*
*Hər dərd ilə tapışır.*

O, ədəbiyyata yeni və diktə olunmamış şair kimi daxil oldu. Bütün qadağalara rəğmən, ruhdan düşmədən yazırdı. Əzab çəkdiyi üçün yazırdı...

*Qır-qızıl paslanar, çürüyər polad,*
*Mərmər də məhkumdur, axır ölümə.*
*Təkcə qəm-kədərdir əbədi heyhat*
*Bir də hər səslənən şahanə kəlmə!*

80-ci illərin sonlarında Rusiyada A.Axmatovanın əsərlərinin kütləvi çapı geniş vüsət aldı. Bu illərdə şairin toplularını həm Moskva, həm də Leninqrad nəşriyyatları bir-birinin ardınca yüksək tirajla nəşr edirdilər. Bundan sonra A.Axmatovanın şeirləri bir çox dünya xalqlarının dilində də yayılmağa başlayır. Bu gün Azərbaycanda A.Axmatovanın həyat və yaradıcılığını araşdırmaq şeirlərini dilimizə çevirmək dövrün və zamanın zərurətindən daha çox, müasir oxucunun ehtiyacını ödəmək baxımından vacibdir. Gəlin, Anna Axmatova şeirlərinin işığından ruhumuza nur alaq...

**Aynurə ƏLİYEVA**

# “Mən realist dramaturqam”

## Tuncər Cücənoğlu: “Əsas odur ki, duyğularının səhnə həlli tamaşaçıya çatsın. Yazıçı, dramaturq olaraq mənim əsas qayəm də budur”

Dünyaya inteqrasiya, hər kəsin anlayacağı dil ilə dialoq dedikdə ilk olaraq yada sənət və onun teatr qolu düşürsə, nə xoş. Çünki çağdaş teatr düşüncəsində də əsas qayə budur – tamaşaçıya dövrünün aynası ola bilməsini izhar etmək. Bu anlamda çağdaş dünya teatrında onun da öz adı var. Tuncər Cücənoğlu imzası teatr ictimaiyyətinə yaxşı tanışdır. Müxtəlif mövzulu əsərləri, aktual problemləri əhatə edən dramaturgiyası səhnədən-səhnəyə dolaşır. Əsərləri rus, ingilis, alman, fransız, bolqar, yunan, gürcü, yapon, Azərbaycan, tatar, çin, ərəb, fars, özbək – ümumilikdə 30-dan artıq xarici dilə tərcümə olunan müəllif bu il dramaturq kimi yaradıcılığının 50 ilini qeyd edir.



Müxtəlif ölkələrdə fərqli səhnələrdə tamaşaya qoyulan “Uçqun”, “Boyaçı”, “Gözəlçələr”, “Qızıl çay”, “Dalan”, “Sənət”, “Təyyarə”, “Şapka”, “Ziyarətçi”, “Müəllim” və s. əsərləri müəllifə şöhrət gətirib.

Onunla müsahibəni bir müddət öncə etmiş, Azərbaycanda da tamaşaya qoyulan əsərləri və bütünlükdə çağdaş teatrda baş verən proseslərdən danışmışdıq. Hazırda səhhəti ilə bağlı problem yaşayan və müalicəsini davam etdirən yazıçıya şəfa diləyir və bu söhbəti sizlərə təqdim edirik.

**- Gəlin, söhbətə bundan başlayaq ki, bu gün teatr kimə və nəyə lazımdır?**

- Teatr hər zaman və hamıya lazımdır. Dilindən, düşüncəsindən, dünyagörüşündən asılı olmayaraq, hamının bu ecazkar sözə ehtiyacı var. Çünki teatr elə özlüyündə həyat, gerçəkliyin yığcam əksidir. Teatrı, sənəti həyatın bir parçasına çevirməyə məcburuq. Çünki ən mürəkkəb vəziyyətlərdə, ən kritik məqamlarda sənət, xüsusən teatr həm də xilas, sevgi, anlaşma, tolerantlıqdır.

**- Sizin üçün teatrın nə ifadə etdiyini bir neçə cümləyə sığdırsaq...**

- Mənim üçün teatr həyatın tam özü, yaşamağın nüvəsidir. O, dünyanı dəyişdirəcək, həm də gözəlləşdirərək dəyişdirəcək ən mükəmməl rejissordur.

**- Bir çoxları dar məkanda böyük azadlıq vəd edən teatra tam başqa yanaşır. Xüsusən gənclərə teatrın hansı önəmini deməliyik?**

- Haqlısınız, teatr məkan, sənət olaraq nə dərəcədə vacib bir nemətdir fikrini durmadan təbliğ etməliyik. Həm də təkcə gənclərə yox. Elə yetişən tamaşaçı nəslinə – uşaqlara və təəssüf ki, türlü səbəblərdən teatrdan ayrı düşən, yaxud həyatında heç vaxt teatra aid bir səhifə olmayan böyüklərə, yaşlılara da onun önəmini çatdırmalıyıq. Daha yaşanılası dünya, daha yaxşı dialoq üçün bu, vacibdir.

**- Əsərləriniz müxtəlif dillərə tərcümə olunub və fərqli səhnələrdə qoyulub...**

- Pyeslərim hazırda 35 dilə tərcümə olunub və proses davam etməkdədir. Əsərlərim bəşəri və aktual problemlərin səhnə həllinə çalışmaq cəhdim olduğundan istər rejissorlar, istərsə də tamaşaçılar tərəfindən maraqla qarşılanıb ki, bu da məni çox sevindirir.

**– Bu uğura necə nail olmusunuz?**

– Əsərlərimi yalnız Türkiyə üçün deyil, dünya xalqları üçün də yazıram. İnsanlığın problemləri ortaqdır. Əgər sağlam bir hekayəniz, xarakterləriniz və insanlığı maraqlandıran bir mesajınız varsa, bu zirvəyə çatmaq mümkündür.

**– Azərbaycan tamaşaçısı sizi kifayət qədər tanıyır. Bizim ölkəmizdə səhnə həyatı yaşayan əsərlərinizin quruluş həlli sizi qane edirmi?**



– Əsərlərimin dost, qardaş ölkədə səhnələşdirilməsi, tamaşaçılarda, mədəniyyət, teatr sahəsinə bağlı insanlarda maraq doğurması məni çox sevindirir. Etiraf edim ki, əsərlərim sizin səhnələrdə nümayiş olunanda daha çox sevinirəm. Çünki oranın oxucusu da, tamaşaçısı da, quruluşçusu da mənə ruhən yaxın, doğmadır. Eynən Nazim Hikmətə, Əziz Nesinə, Səbahəttin Əliyə yaxın olan kimi. Həm də Azərbaycan teatrı özlüyündə zəngin bir tarixə, yola malikdir. Fərqli cərəyan və məktəblər bu ölkənin teatrını inkişaf etdirib.

**– Bir müəllif olaraq hansı mövzulara toxunmağa çətinlik çəkirsiniz? Və ya hansı mövzuda yazmaq ağırdır?**

– Hazırkı durumda bəzi mövzular var ki, milliyyətçilik və təəssübkeşlik kimi yozulma məqamında toxunmaq çətindir. Yəni həssas mövzulardır və istənilən halda müəllif olaraq sənin toxunmadığın, sətiraltı belə vermədiyin mənalarda da müzakirə oluna bilər. Amma mən elə məhz bu həssas və olduqca ağrılı mövzulara toxunmağa çalışıram. Çünki ədəbiyyat, yaradıcılıq hansısa fərdlərin və ya qrupların yox, ümumilikdə bəşəriyyətin təməl dəyərlərinə xidmət etməlidir.

**– Azərbaycan teatrı, rejissorları, bizim teatr sənətimiz haqqında düşüncələriniz maraqlıdır.**

– Ondan başlayım ki Azərbaycan xalqı məni sevdi. Çünki bu günə qədər “Kor döyüşü”, “Ziyarətçi”, “Ah, bir yoxsul olsam”, “Uçqun”, “Gözəlçələr” və “Boyaçı” adlı əsərlərim dost və qardaş Azərbaycanda səhnələşdirilib. Və digər əsərlərim də səhnələşdiriləcək. Çünki mən Azərbaycan xalqı ilə ruh əkiziyəm.

Bunu da əsla unutmayın ki, böyük dünya şairimiz Nazim Hikmətin ən yaxın dostu, ölümündə yanında Əkbər Babayev olub. Yenə Nazim ustamın “Fərhad və Şirin” pyesi əsasında məşhur baletinin (“Məhəbbət əfsanəsi” – red.) müəllifi dünyanın ən böyük musiqiçilərindən olan Arif Məlikovdur. Mən “Qızıl çay” əsərimin balet librettosunu yazdım və Azərbaycanın tanınmış bəstəkarı Cavanşir Quliyev buna səhnə həlli verdi. Bu əsər Türkiyə ilə bərabər bir çox ölkələrin repertuarına daxil oldu. Ümid edirəm ki, Türkiyə və Azərbaycan xalqlarının ortaq bir məhsulu olaraq sizin Opera və Balet Teatrının səhnəsində də bu tamaşa nümayiş olunar.

Azərbaycan xalqı zəngin və qədim, çoxşaxəli və fundamental mədəniyyətə malik xalqdır. Xüsusilə teatr sahəsində mühüm inkişaf yolu keçib. Paytaxt Bakı əsl mədəniyyət, teatr şəhəridir. Baxın, istər binalarının memarlıq xüsusiyyətlərinə, istər təmir-bərpasına, istərsə də yaradıcılıq fəaliyyətlərinə görə hər bir teatr inkişaf edib. Sizdə fərqli estetika, janr və profillərdə teatrlar var. Bu özlüyündə çox yaxşı haldır. Yəni tamaşaçı istər yaş qrupu, istərsə də janr olaraq artıq hansı teatrda nəyə tamaşa edəcəyini bilir. Bu bölgə teatrlarına da aiddir. Sizdə əksər şəhərlərdə dövlət və xalq teatrlarının olması sadəcə alqışlanmalıdır. Ümumilikdə Azərbaycanda teatrın dövlətin diqqətində olması sənətin yaşamasına, yaşadılmasına zəmanətin ən yaxı nümunəsidir.

**– İllərdir dramaturgiya ilə məşğulsunuz. Daha çox hansı janr sizə yaxındır?**

-- Mən toplumçu və realist dramaturqam. Bu 50 ildə də daim bu anlayışa xidmət edən əsərlər yazdım.

**– Bu gün kino, seriallar, ümumilikdə televiziya və internet teatra marağı azaldıb. Necə düşünürsünüz, teatr çətin dönəmini yaşayır?**

– Konkret olaraq Türkiyəni götürsək, burada teatr hər zaman özünün baş köşəsindədir. Xüsusən seriallar onu təsir altına sala bilməz. Çünki onlar gündəlik fəaliyyətdir. Teatr isə qalıcı və böyük sənətdir. Bu səbəbdən də əminəm ki, teatr hər zaman qalacaq.

**– Bir çoxları düşünür ki, teatr kütləvi, genəl izləyici için deyil. Razısınız?**

– Teatr ümumilikdə cəmiyyəti maraqlandıran, ona yön verən bir xüsusiyyətə malikdir. O özünün öyrətmək, yəni maarifləndirmək xüsusunu qorumalıdır. Teatrın bu funksiyası isə əsla unudulmamalıdır.

**– Yaradıcılığınıza nəzər yetirdikdə daha çox ümumi problemlərdən yazdığınızı və həmin problemlərin bütün dünya üçün aktual olduğunu görürük.**

– Mən insanlığı ulu öndərimiz Mustafa Kamal Atatürk kimi, eynən onun gözü ilə görməyə çalışıram. Yəni dünyadakı bütün xalqlar böyük insan bədəninin parçaları kimidir. Yəni hamısı birlikdə bir bütündür. Əlində, ya da başında problem olan insanın acısını bütün insanlıq hiss edir. Beləliklə insanlığı maraqlandıran bir mövzunun bütün dünyada səhnələşdirilməsi vacibdir.

**– Daha hansı əsərlərinizin bizim səhnəmizdə quruluşunu arzu edərdiniz?**

– Qarşıdakı mövsüm dramaturji fəaliyyətimin 50 ilini qeyd edəcəyik. 50 il fasiləsiz yaradıcılıqla məşğul olmaq elə də asan deyil. İnşallah, bu xüsusi təqvim sizdə və əsərlərimin oynanıldığı digər ölkələrdə də qeyd olunacaq. Əsas odur ki, duyğularının səhnə həlli tamaşaçıya çatsın. Çünki yazıçı, dramaturq olaraq mənim əsas qayəm də məhz budur.

**HƏMİDƏ**

## Xatirə təqvimi

**17-19 iyul**

### Azərbaycan

**17 iyul 1487** – Azərbaycan Səfəvilər dövlətinin banisi, görkəmli sərkərdə, şair Şah İsmayıl Xətai (1487 - 23.5.1524) Ərdəbildə doğulub. 1501-ci ildə Təbrizi paytaxt elan etməklə Səfəvi dövlətini qurub. Dövrünün tanınmış şairi kimi «Xətai» təxəllüsü ilə əsərlər yazıb. 1524-cü il mayın 23-də vəfat edib, Ərdəbildə Şeyx Səfi məqbərəsində dəfn olunub.

**17 iyul 1898** – Ədəbiyyatşünas, publisist Əbdülvahab Hacı Zeynalabdin oğlu Məmmədzadə (Yurdsevər; 1898-1976) Bakıda anadan olub. 1923-cü ildə həbs edilib, 10 il həbs və sürgün həyatı yaşadıqdan sonra mühacirətə gedib. 60-70-ci illərdə İstanbulda Azərbaycan Milli Mərkəzinə rəhbərlik edib, Ankara dəfn olunub.

**17 iyul 1953** – Xalq artisti Telman Adıgözəlov (1953 – 15.4.2010) Balakən rayonunda doğulub. Teatr və televiziya tamaşalarında maraqlı obrazlar yaradıb, “Yol əhvalatı”, “Anlamaq istəyirəm”, “Günaydın, mələyim!” və s. filmlərdə çəkilib.

**17 iyul 2001** – Tarixçi, şərqşünas, akademik Sara Balabəy qızı Aşurbəyli (27.1.1906 - 2001) vəfat edib.

**18 iyul 1018** – Böyük türk mütəfəkkiri və dövlət xadimi Nizamülmülk (tam adı Əbu Əli Əl-Həsən ət-Tusi Nizamülmülk; 1018 - 14.10. 1092) anadan olub. Səlcuq sultanları Alparslan və Məlikşahın vəziri olub, “Siyasətnamə” kitabının müəllifidir.

**18 iyul 1864** – Məşhur xanəndə Keçəçi oğlu Məhəmməd (Məhəmməd Məşədi Xəlil oğlu; 1864 - 20.11.1940) Şuşada doğulub. Xanəndənin ifasında muğam və xalq mahnıları Varşava və Kiyevdə qrammofon vallarına yazılıb. 1926-cı ildən Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyasında müəllimlik edib.

**18 iyul 1927** – Tanınmış heykəltəraş, Xalq rəssamı Tokay Həbib oğlu Məmmədov (1927 – 2.5.2018) anadan olub. Üzeyir Hacıbəylinin, Nəsiminin, Füzulinin (Ömər Eldarovla birlikdə), Koroğlunun Bakıda ucaldılan heykəllərinin müəllifidir. Dövlət Rəssamlıq Akademiyasının professoru kimi gənc heykəltəraşların yetişməsinə töhfələr verib.

**18 iyul 1932** – Əməkdar elm xadimi, filologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü Azadə Cəfər qızı Rüstəmova (1932-2006) Bakıda doğulub. Kitabları: “Azərbaycan epik şeirinin inkişaf yolları”, “Məhəmməd Füzuli”, “Nizaminin poeziya sələfləri” və s.

**19 iyul 1915** – Xalq artisti, opera müğənnisi (bariton) Ağababa Balağa oğlu Bünyadzadə (1915 – 17.12.1974) Bakının Kürdəxanı kəndində doğulub. 1938-ci ildən Akademik Opera və Balet Teatrının solisti olub: “Koroğlu” (Həsənxan), “Şahsənəm” (Xan), “Sevilya bərbəri” (Fiqaro), “Otello” (Yaqo) və s.

### Dünya

**17 iyul 1846** – Rus alimi, səyyah və etnoqraf Nikolay Mikluxo-Maklay (1846-1888) anadan olub. Cənub-Şərqi Asiyanın, Avstraliyanın müxtəlif xalqlarının etnoqrafiyasını tədqiq edib.

**17 iyul 1888** – İsrail yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1966) Samuel Aqnon (Samuel Josef Agnon; 1888-1970) anadan olub. “Toy talvarı”, “Gecə qonağı” və s. romanların müəllifidir.

**17 iyul 1889** – Amerika yazıçısı, detektiv əsərlərin müəllifi Erl Stenli Qardner (Erle Stanley Gardner; 1889-1970) anadan olub. 100-dən artıq romanın müəllifidir.

**18 iyul 1610** – İtalyan rəssamı, Avropa realist rəngkarlığının banilərindən Mikelancelo Karavaco (Michelangelo Merisi da Caravaggio; 28.9.1573 - 1610) vəfat edib. Məşhur əsərləri: “Tövbə edən Mariya Maqdalina”, “David və Qoliaf”, “Müqəddəs Pyotrun əzabkeşliyi” və s.

**18 iyul 1811** – İngilis yazıçısı Uilyam Tekkerey (William Makepeace Thackeray, 1811-1863) anadan olub. “Şöhrətpərəstlik yarmarkası”, “Snoblar kitabı” və s.

**19 iyul 1893** – Rus şairi Vladimir Mayakovski (1893 - 14.4.1930) Gürcüstanın Kutaisi bölgəsinin Baqdadi kəndində doğulub. 1906-cı ildə ailəsi Moskvaya köçüb. Poemaları: “Şalvarlı duman”, “150 000 000”, “Vladimir İliç Lenin” və s. Satirik pyesləri: “Misteriya Buff”, “Hamam” və s.

**Hazırladı: Vüqar ORXAN**

## Kitab rəfi

### “İrəvan: ensiklopedik foto-toplu”

Filologiya üzrə elmlər doktoru, professor Cəfər Cəfərovun və filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin tərtib etdiyi “İrəvan: ensiklopedik foto-toplu” kitabı çapdan çıxıb. Topluda İrəvan mühiti ilə bağlı 110 ziyalı haqqında yığcam məlumat verilir. Tərtibçilərin kitaba daxil etdikləri foto-toplu materialları unudulmuşları, yaddan çıxmışları tarixə çevirməyin nə qədər vacib olduğunu gündəmə gətirir.

“Elm və təhsil” nəşriyyatında işıq üzü görən kitabın redaktoru və ön söz müəllifi filologiya üzrə elmlər doktoru, professor Buludxan Xəlilovdur.

B.Xəlilov ön sözdə yazır ki, topludakı hər şəklin arxasında bir tarix dayanır. Fotolarda yaşayan tarixin özü də ən gərəkli mənbə, qaynaq rolunu oynayır. Şəkillər arasında elələri var ki, İrəvanla bağlı möhürdür, silinməyən, itməyən abidədir. Topludakı Göy məscid, İrəvanın qədim görüntüsü, İrəvan yaxınlığındakı Çobankərə kəndindən bir görünüş, Sərdar sarayı, Pənah xanın sarayı, İrəvanda Bazar meydanı və digər fotolar tarixi həqiqətləri təqdim etmək baxımından əvəzsizdir.

### Məczub Təbrizinin “Divan”ı nəşr olunub

XVII əsrdə yaşamış Azərbaycan alimi və şairi Məczub Təbrizinin anadilli “Divan”ı Təbrizin “Qalan yurd” nəşriyyatında çapdan çıxıb.

Məczub Təbrizinin “Divan”ını nəşrə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktor müavini, filologiya üzrə elmlər doktoru, professor Paşa Kərimov hazırlayıb.

İnstitutdan bildiriblər ki, kitab Leyden Universiteti Kitabxanası (Niderland) və Qahirə Milli Kitabxanasında (Misir) saxlanılan əlyazma nüsxələri əsasında hazırlanıb.

### “Robert Börns: şeir, nəğmə körpüsü...”

Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva və filologiya üzrə elmlər doktoru Şahin Xəlillinin həmmüəllif olduqları ”Robert Börns: şeir, nəğmə körpüsü və sözlə hörülmüş dünya” adlı yeni dərs vəsaiti çap olunub.

Universitetdən bildirilib ki, dərs vəsaitində Britaniya poeziyasının klassik şairi, şotland əsilli Robert Börnsün həyat və yaradıcılığına dair ədəbi esselər, onun şeir və nəğmələrinin bir qisminin orijinaldan tərcümələri, şərhlər təqdim edilir.

Kitabın elmi redaktoru filologiya üzrə elmlər doktoru, professor Qəzənfər Paşayev, redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Fialə Abdullayeva, rəyçiləri filologiya üzrə elmlər doktorları – professorlar Qorxmaz Quliyev, Rafiq Yusifoğlu və Aynur Sabitovadır.

## Mədəniyyət evində uşaqların moda yarışması

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Şüvəlan qəsəbə Mədəniyyət evində uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi üçün moda yarışması təşkil olunub.

Tədbirin aparıcısı Fatimə Rüstəmova moda yarışması barədə məlumat verərək iştirakçılara uğurlar arzulayıb.

Sonra ”Sweet baby” rəqs kollektivi çıxış edib.

Münsiflər heyəti qismində rəssam-dizayner Elnarə İskəndərova, “İncilər” uşaq bağçasının direktoru Leyla İbişova, Zığ qəsəbə Mədəniyyət evinin direktoru, modelyer-dizayner Günel İmaməliyeva çıxış ediblər.

I, II, III yerləri tutan uşaqlar diplom, fəxri fərman və hədiyyələrlə təltif olunublar.

## “Boş oturma, kitab oxu!”

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Sabunçu rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 nömrəli filialında yay tətili boyunca məktəblilərin asudə vaxtlarının səmərəli keçməsi məqsədilə “Boş oturma, kitab oxu!” adlı qiraət saatı keçirilib.

Kitabxana əməkdaşları mütaliənin əhəmiyyəti barədə məlumat verib.

Qeyd edək ki, ədəbiyyatımızın təbliği, eləcə də xarici ədəbiyyata maraq yaratmaq məqsədilə kitabxanada oxu və qiraət saatları yay tətili boyunca davam edəcək.

## “Ürəyində arzu tut”

### Şəki və Sabirabadda da nümayiş etdirilib

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşəbbüsü, regional mədəniyyət idarələrinin təşkilatçılığı ilə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı respublikanın şəhər və rayonlarına qastrol səfərinə çıxıb.



Kollektiv yazıçı Sevinc Elsevərin Xocalı soyqırımına həsr olunmuş “Ürəyində arzu tut” tamaşasını Gəncədə nümayiş etdirmişdi.

Səhnə əsəri Şəki Dövlət Dram Teatrında da təqdim edilib. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Sərvər Əliyev, quruluşçu rəssamı Vahid Mürsəliyev, musiqi tərtibatçısı Çingiz Xəlilovdur.

Rollarda əməkdar artist Xatirə Süleymanova, aktyorlar Pərvin Dadaşova, Bəhruz Hikmətoğlu, Məhərrəm Musayev, Ruhiyyə Eyvazova, Niyaməddin Səfərəliyev, Sevinc Hüseynova və Arzuman Tanrıverdi çıxış ediblər.

İyulun 16-da “Ürəyində arzu tut” tamaşasını Sabirabad rayonunda nümayiş etdirən İrəvan teatrı 137-ci mövsümü qastrol səfəri ilə başa vurub.

# Kannda Azərbaycan mədəniyyəti günləri

## Lacivərd sahildə növbəti incəsənət layihəsi

Heydər Əliyev Fondu, ölkəmizin Fransadakı səfirliyi və Kann şəhər meriyasının təşkilatçılığı ilə lacivərd sahildə - festivallar şəhəri Kannda növbəti Azərbaycan mədəniyyəti günləri başlayıb.



Kann Festivallar və Konqreslər Sarayı yaxınlığındakı "Dəniz vağzalı" (Gare maritime) sərgi pavilyonunda "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı xalça sərgisinin açılışı olub.

Sərginin açılışında Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Kann şəhər merinin müavini Frank Şıkli çıxış ediblər.





Anar Ələkbərov Heydər Əliyev Fondunun fəaliyyəti və müxtəlif ölkələrdə, eləcə də Fransada həyata keçirdiyi layihələr haqqında məlumat verib, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın mədəniyyətimizin dünyada tanıdılmasına töhfələrindən danışıb. İcraçı direktor Azərbaycan xalçaçılıq məktəbinə, onun tarixinə toxunaraq bu sərginin böyük əhəmiyyət daşıdığını qeyd edib.

Diqqətə çatdırılıb ki, bu günlərdə UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında ölkəmiz üçün çox mühüm bir qərar qəbul edilib, Şəki şəhərinin tarixi mərkəzi Xan sarayı ilə birgə UNESCO-nun Dünya irs siyahısına salınıb. "Kann şəhərində təqdim edilən sərgidə də məhz Şəki xalçaçılıq məktəbi təqdim olunur. Fondun iki ildən çox müddətdəki zəhmətinin bəhrəsi olan bu sərgidə Xalq rəssamı Eldar Mikayılzadənin Azərbaycan xalçalarının Şəki qrupundan olan 13 xalça və xalça eskizləri nümayiş olunur", - deyə A.Ələkbərov vurğulayıb. O, sərginin ərsəyə gəlməsində əməyi olan hər kəsə, o cümlədən sərgilənən xalçaları ərsəyə gətirən toxuculara, Kann şəhər meriyasının əməkdaşlarına təşəkkürünü bildirib.

Kannda artıq ənənəyə çevrilmiş Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyətinə toxunan Frank Şıkli bildirib ki, mədəniyyət xəzinəmizin yaxından tanınmasını təşviq edən belə layihələr iki xalqın daha da yaxınlaşmasına, qarşılıqlı münasibətlərin zənginləşməsinə töhfə verir.

Sonra mərasim iştirakçıları sərgi ilə tanış olublar. "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgidə xalçaçı-rəssam Eldar Mikayılzadənin Şəki qrupuna aid 13 xalça eskizi ilə yanaşı, onların əsasında toxunan xalçalar və texniki rəsmlər nümayiş etdirilir. Rəssam xalça eskizlərində Şəki Xan sarayı və Şəkixanovların evindəki divar rəsmlərinə, şəbəkələrə müraciət edib.

Avqustun 18-dək davam edəcək sərgiyə baxmağa gələn Kann şəhərinin sakinləri və turistlər layihənin hazırlanmasına dair sənədli filmlə də tanış ola biləcəklər.

# Dirijor Əyyub Quliyev Budapeştdə festivalda iştirak edib

Budapeştin tarixi saraylarından və məşhur konsert zallarından biri – "Viqadu"da (Vigado) "Klassz a Parton" beynəlxalq musiqi festivalının rəsmi açılış mərasimi olub.



İyulun 30-dək davam edəcək festivalda bir sıra ölkələrdən – Avstriya, İtaliya, Almaniya, İsveçrə, Slovakiya, Macarıstan, ABŞ və Türkiyədən tanınmış musiqiçilər iştirak edirlər. Ölkəmizi festivalda Əməkdar artist, Akademik Opera və Balet Teatrının baş dirijoru, beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyev təmsil edir.

Açılış mərasimindən əvvəl konsertin aparıcısı Azərbaycanın musiqi mədəniyyəti barədə məlumat verib. Daha sonra dirijor Əyyub Quliyevin rəhbərliyi altında Macarıstan Milli Simfonik Orkestri "Obuda Danube" Avropa klassik musiqisinin ən parlaq nümunələrini – Volfqanq Amadey Motsartın 35-ci "Xaffner" simfoniyasını və Frans Şubertin 5-ci simfoniyasını təqdim edib. Hər iki əsər böyük maraqla qarşılanıb.

"Klassz a Parton" festivalının bədii rəhbəri, Macarıstanın məşhur pianoçusu Tamaş Erdinin ifası isə konsertə xüsusi rəng qatıb. Onun ifasında Karl Mariya fon Veberin "Konsertştük" və Frederik Şopenin "Andante spianato və Grand Polonez" əsərləri dinləyicilər tərəfindən sürəkli alqışlarla qarşılanıb.

Sonda Macarıstanın tanınmış incəsənət xadimləri - yazıçı, şair və bəstəkarları, mətbuat nümayəndələri azərbaycanlı dirijoru və macar musiqiçiləri təbrik edərək xoş arzularını bildiriblər.

Konsert Macarıstanın Bartok Dövlət Radiosu tərəfindən lentə alınıb.

# İstanbulda Müasir İncəsənət Muzeyi üçün yeni bina tikilir

İstanbulda Müasir İncəsənət Muzeyinin (İstanbul Modern) əsası 1987-ci ildə keçirilən Beynəlxalq biennale ilə qoyulub.



2003-cü ildə Memar Sinan İncəsənət Akademiyasının yaxınlığında yerləşən gömrük anbarı olan bina muzeyə çevrilib. 8 min kvadratmetr sahəyə malik binada fəaliyyət göstərən muzey 2018-ci ilin may ayından etibarən Bəyoğlu səmtindəki müvəqqəti məkanına köçüb. Muzey yeni bina tamamlananadək fəaliyyətini mədəniyyət və sənətin beşiyi hesab edilən Beyoğlunda davam etdirəcək.

İstanbul Modern müasir sənət sahəsindəki eksponatlarının sərgiləndiyi bölmələri, fotoqalereyası, təhsil və sosial proqramları, kitabxana, kinoteatr, restoran və mağazası ilə sənətsevərlərə xidmət edərək, həmçinin dünyanın əhəmiyyətli muzeylərində həyata keçirdiyi layihələrlə Türkiyənin tanınması və mədəni turizminin inkişafına töhfələr verir.

**Mehparə SULTANOVA**
**Ankara**

# Sofi Loren kinoya qayıdır

Məşhur italyan aktrisası Sofi Loren 84 yaşında yenidən kameralar qarşısına çıxmağa hazırlaşır. Aktrisa oğlu Edoardo Pontinin "The Life Ahead" ("Həyat irəlidədir") adlı filmində çəkilməyə qərar verib.



Sofi Loren filmdə Holokostdan (yəhudi soyqırımı) sağ qalan Madam Rosa adlı qəhrəmanı canlandıracaq. Roman Qarinin əsəri əsasında bundan əvvəl 1978-ci ildə bu mövzuda film çəkilib.

Rejissorun dediyinə görə, bu dəfə əsər tam fərqli versiyada təqdim olunacaq.

Filmin çəkilişləri İtalyanın sahil şəhəri olan Baridə başlayıb. Sofi Lorenin dediyinə görə, tamaşaçılar onun ekranda etdiklərini təəccüblə qarşılayacaqlar.

Filmdə rolları ispan aktrisası Abril Zamora, italyan Renato Karpentieri, iranlı Babək Kərimi və başqaları canlandıracaq.

**İLONA**

# "Sadəcə zəng vurdum deyəm ki, səni sevirəm"

## Stiv Uander dünya turunu yarımçıq qoyaraq cərrahiyə əməliyyatına gedir

Dünyaca məşhur amerikalı müğənni Stiv Uanderə böyrək köçürüləcək. Bu barədə xəbəri müğənni özü 5-14 iyul tarixində Londonda keçirilən "British Summer Time" festivalında bildirib. Uander daha üç konsert verəcəyini, sonra isə dünya turunu yarımçıq dayandıracağını deyib.

Tanınmış ifaçı hazırda özünü yaxşı hiss etdiyini deyib. "Mən yaxşıyam, mənimlə olmaq isə daha gözəldir" deyən müğənni artıq donor tapdığını da diqqətə çatdırıb. Həmçinin bildirib ki, bir müddət əvvəl sağalmaz xəstəliyə tutulması ilə bağlı dünya mətbuatında yayılan şayiələr əbəsdir.

69 yaşlı Stiv Uander soul musiqisinin ən parlaq nümayəndəsi sayılır. Bu günə kimi 30-dan çox albomu satışa çıxarılan müğənni 74 dəfə namizəd olmaqla 25 dəfə "Grammy" mükafatına layiq görülüb.

**Lalə AZƏRİ**

# "Şarivari" və sualtı dəniz mühiti

## "YARAT"da açılan iki yeni sərgiyə press-tur təşkil olunub

"YARAT" Müasir İncəsənət Mərkəzində rusiyalı rəssam Taus Maxaçevanın "Şarivari" və Koreya-Kanada rəssamı Zadi Çanın fərdi sərgisinə jurnalistlər üçün press-tur təşkil edilib.



Məlumat verilib ki, geniş və çoxprofilli yaradıcılıq təcrübəsinə malik Taus Maxaçeva bu dəfə interaktiv multimedia instalyasiyasını təqdim edir. İnstalyasiya ümumilikdə SSRİ-də sirk ənənələrinə, ələlxüsus Bakı Dövlət Sirkinin tarixinə həsr olunub, müəllif əsərlər vasitəsilə Qafqazın müasirliyini araşdırır.

Memar Mariya Serova, yazıçı Aleksandr Sneqiryov və geyim üzrə rəssam Panika Derevya ilə birgə əməkdaşlıq çərçivəsində hazırlanmış monumental, çoxlaylı instalyasiyaya mərkəzi heykəltəraşlıq elementi də daxildir. Bu element sərgi müddətində genişləndirilərək nizamsız, daim inkişaf edən "şarivari" sirk ruhunu vurğulayır. "Şarivari" termini spesifik sirk hərəkətinə – sinxron şəkildə təqdim edilən çoxjanrlı fərdi və qrup çıxışlarından ibarət kütləvi sirk tamaşasına istinad edir. Hər bir hərəkət və ritm getgedə sürətlənir və tamaşanın texniki mürəkkəbliyi də artır; sanki artistlər bir-birləri ilə rəqabət aparır, öz istedadları və məharətlərini, bacarıqlarını, cəsarətlərini və xarakterlərini nümayiş etdirirlər.



Taus Maxaçeva 1983-cü ildə Moskvada anadan olub. Məşhur avar şairi Rəsul Həmzətovun nəvəsidir. Londonun Qoldsmit Kollecində bakalavr və Kral İncəsənət Kollecində magistr təhsili alıb. Mahaçkalada yaşayır. Müasir incəsənət sahəsində "İnnovasiya" Dövlət mükafatının, Kandinski mükafatının ("İlin media layihəsi" nominasiyası, 2011) laureatıdır.

Taus Maxaçevanın filmlər və arxiv fotoşəkillərinə əsaslanan instalyasiyası xaotik, xəyali sirk mühiti yaradır və bura qeyri-adi, qəribə məxluqlarla doludur: danışan at, sintetik ayılar, şirin cəhəngində gimnast, gimnastın içində isə qoyun... bunlardan sadəcə bir neçəsidir. Tamaşaçıya sirk arenasında doğuş prosesinin şahidi olmaq, qeyri-adi insan-heyvan piramidasının necə qurulmasını seyr etmək, VR (virtual reallıq) sirk dəbilqəsini sınamaq və bir çox digər fantastik təcrübələrdə iştirak etmək imkanı təklif olunur.

Sərginin kuratoru Suad Qarayeva-Malekidir.

Sonra media təmsilçiləri Zadi Çanın fərdi sərgisi haqqında məlumatlandırılıb. Qeyd edilib ki, yeni multimedia layihəsini təqdim edən Zadi Ça atmosfer işıqlandırması, hərtərəfli səs sistemi, iriölçülü videoproyeksiyalar, heykəllər və kostyumlar vasitəsilə seyrçiləri cəlbedici dünyaya dəvət edərək sualtı dəniz mühiti yaradır.

Zadi Ça 1983-cü ildə Vankuverdə doğulub. Hazırda Londonda yaşayır və fəaliyyət göstərir. Əsərləri beynəlxalq qalereya və festivallarda nümayiş etdirilir.

Zadi Ça müxtəlif mədəniyyətlərin öz identikliyini və özü haqqında təsəvvürləri necə bəyan etmələrini müəyyən etmək məqsədilə, canlı performans, video, rəsm və parçalardan istifadə edir. Rəssamın çoxlaylı kostyum əsərləri – musiqi, rəqəmsal məkan, moda və incəsənət tarixindən qaynaqlanan, bədii obrazları özündə birləşdirən özəl mədəniyyət tarixini araşdırmaq üçün obyektlərdir. Rəssam çox zaman fantastik sualtı aləmi yaradaraq, bu sərgidə iriölçülü, okeanın hərtərəfli səs sisteminə malik videoproyeksiya və qatil balina sürüsünü (bu element heykəllər silsiləsində də istifadə olunur) nümayiş etdirir.

Sərginin kuratoru "Art Night"ın bədii rəhbəri Helen Nisbet və kurator assistenti Emi Baddır. Performans proqramının kuratoru Anna Fexdir.

Hər iki sərgi sentyabrın 29-dək ziyarətçilər üçün açıq qalacaq.

Ağdaş Regional Mədəniyyət İdarəsinin Zərdab rayon nümayəndəliyi, rayon Mədəniyyət Mərkəzi və MKS-nin kollektivi regional idarənin rəisi Ramiz Quliyevə əzizi

**Gülnarə Rafiq qızı Bəylərovanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5150
**Sifariş:** 2395
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.